# *Hüseynin (ə) sevgisi*

***Hz. Peyğəmbər (s) buyurur: "İmam Hüseyn (ə) şəhadətinə görə möminlərin ürəyində elə bir hərarət və istilik vardır ki, heç bir zaman sönməz və soyumaz".***

*İmam Rza (ə) buyurur: "O kəsin ki, Aşura – müsibət, qəm və ağlamaq günü olar Allah Qiyamət gününü onun üçün şadlıq günü qərar verər".*

*İmam Rza (ə) buyurur: "Nə zaman Məhərrəm ayı gəlib çatsa, atam bir daha gülərüz görünməzdi. Qəm və kədər ona qələbə çalardı. O zamana qədər ki, Məhərrəm ayından on gün keçərdi. Məhərrəm ayının onuncu günü atamın müsibət, qəm və göz yaşı tökmək günü olardı".*

*İmam Sadiq (ə) buyurur: "Atam İmam Baqir (ə) mənə buyurub: "Ey Cəfər! Öz malımdan bir miqdarını mərsiyə deyənlərə vəqf et ki, on il həcc əyyamında Minada mənə növhə deyib, əza saxlasınlar".*

*Həzrət Peyğəmbər (s) buyurur: "Fatimə can! Qiyamət günü hər göz ağlardır. Yalnız o göz ki, Hüseyn (ə) müsibətinə və əzasına ağlamış olar ki, o göz Qiyamət günü gülərdir. Behişt nemətləri ilə müjdələnər".*

*İmam Sadiq (ə) Cəfər ibni Əfana buyurur: "Elə bir insan yoxdur ki, Hüseyn (ə) üçün şeir qoşsun və ağlasın və onunla ağlatsın, məgər o halda ki, Allah behişti ona vacib edər və onu bağışlayar".*

*İmam Rza (ə) Dəbələ buyurur: "Ey Dəbəl! İstəyirəm ki, mənim üçün şeir qoşub oxuyasan. Çünki bu günlər (Aşura günləri) qəm və kədər günüdür ki, bizim başımıza gəlmişdir".*

*İmam Rza (ə) başqa yerdə buyurur: "Ey Dəbəl! Hüseyn (ə) üçün mərsiyə de, o zamana qədər ki, sən sağsan, bizim yavər və sitayiş edənimizsən. Bacardığın qədər bizə yardım etməkdə səhlənkarlıq etmə".*

*İmam Hüseyn (ə) buyurur: "O kəsin gözləri ki, bizim müsibətimizdə ağlayar, Allah ona behiştdə yer verər".*

*İmam Hüseyn (ə) buyurur: "Mən göz yaşının öldürülmüşüyəm. Elə bir mömin yoxdur ki, məni yada salsın və (müsibətimə görə ) ağlamasın".*

*İmam Səccad (ə) buyurur: "O möminin ki, gözləri Hüseyn (ə) və tərəfdaşlarının öldürülməsinə görə ağlayar və göz yaşı yanağına axar, Allah ona behişt otaqlarında yer verər".*

*İmam Baqir (ə) Aşura günü İmam Hüseyni (ə) ziyarət edə bilməyənlərə belə göstəriş verərdi: "Hüseyn (ə) üçün ağlayın və əzadarlıq saxlayın. Ev əhlinə əmr edin ki, onun üçün ağlasınlar və evində Hüseynə (ə) nalə və göz yaşı ilə əza məclisi təşkil etsinlər".*

*İmam Sadiq (ə) buyurur: "İmam Səccad (ə) 20 il (Aşuranı) yada salıb ağladı və nə zaman qarşısına yemək qoysaydılar, ağlayardı".*

*İmam Sadiq (ə) buyurur: "Hər kimin yanında bizim (məzlumiyyətimizdən) yada salsalar, gözləri yaşla dolarsa, Allah onun üzünü cəhənnəm atəşinə haram edər".*

*İmam Sadiq (ə) buyurur: "Hər bir şeyin mükafatı və əcri vardır, məgər bizim üçün tökülən göz yaşından başqa". (Yəni, bizim üçün tökülən göz yaşı o qədər dəyərlidir ki, onun mükafatını müəyyən etmək mümkün deyildir).*

*İmam Sadiq (ə) buyurur: "Hər bir nalə çəkmək və ağlamaq məkruhdur, məgər Hüseyn (ə) üçün edilən nalə və göz yaşından başqa".*

# AŞURA MƏKTƏBİ

## MƏKTƏBİN BANİSİ

***Aşura məktəbinin banisi həzrət Hüseyn (ə) 626-cı ildə Ərəbistanın Mədinə şəhərində dünyaya göz açdı. Babası həzrət Məhəmməd peyğəmbər (s), atası İmam Əli (ə), anası isə xanım Fatimeyi-Zəhra (ə) olan Hüseyn (ə), Əhli-beyt (ə) ailəsində böyüyüb, boya-başa çatdı, 632-ci ildə öncə babasını, sonra isə anasını, 661-ci ildə isə atasını əldən verdi və nəhayət, 670-ci ildə qardaşı İmam Həsənin (ə) zəhərlə şəhid edilməsindən sonra ümmətin rəhbərliyini öhdəsinə götürdü.***

***Müaviyənin hakimiyyəti dövründə İmam Həsənin (ə) onunla bağladığı sülh müqaviləsinin şərtlərinə sadiq qalan həzrət Hüseyn (ə), 680-ci ildə onun ölümündən və oğlu Yezidin xilafətə keçməsindən sonra özünün tarixi qiyamına başladı və elə həmin ildə Kərbəla çölündə şəhid edildi.***



### MƏKTƏB NECƏ YARANDI?

Aşura qiyamına qədər İslam dünyasına belə bir təfəkkür tərzi hakim idi: Müsəlman xəlifəyə itaət göstərmək vacibdir, ona qarşı çıxmaq böyük günahlardan sayılır.

Məhəmməd peyğəmbər (s) yaşadığı 63 il ərzində daim zülmə və haqsızlığa qarşı mübarizə aparıb. Lakin onun tərəf-müqabilləri Məkkə müşrikləri, Əbu Süfyanlar və Əbu Cəhllər olub. İmam Əli (ə) sükut etdiyi 24 ildə haqqını qəsb edən müsəlman xəlifələrə qarşı qiyam etməyib. İmam Həsən (ə) də Müaviyənin hakimiyyəti dövründə onunla sülh bağlamalı olub. Lakin, Yezid xilafət taxtına oturduqdan sonra İmam Hüseynin (ə) ona qarşı fikri belə oldu: "Müsəlman ümmətinə Yezid kimi birisi rəhbərlik edirsə, onda İslamın fatihəsi oxunmalıdır".

Sözsüz ki, burada əsas amil Yezidin digər xəlifələrdən fərqliliyi və İmam Hüseynçün (ə) yaranan şəraitin yeniliyidir. Amma hər halda, bu imam özünün qiyamıyla sözügedən təfəkkürü batil etdi, ən azı şiə dünyasında kimliyindən asılı olmayaraq, bütün zalımlara qarşı yenilməz mübarizə məktəbinin əsasını qoydu. O, öz qiyamı və nəticədə şəhidliyilə inqilab, mübarizə və ədalət simvoluna çevrildi, Allah yolundakı ölümün səadət, zalımları təsdiq etməyinsə rəzillik olduğunu isbatladı. O sübut etdi ki, yaxşılıqlara dəvət etməyən və pisliklərdən çəkindirməyən bir mömünin, hər hansı bir cəmiyyətdə olmasıyla olmaması arasında heç bir fərq yoxdur.



### MƏKTƏBİN ÖZƏLLİKLƏRİ

* İman, təqva və ilahi məsuliyyət hissinə əsaslanır.

* Hidayət (yaxşılıqlara dəvət, pisliklərdən çəkindirmək) edəndir.

* Zülmə qarşı barışmaz mövqedədir. Zalım və məzlumun müsəlman və ya kafir olmasının isə fərqi yoxdur.

* Müsəlmanların problemlərinə qarşı biganəlik göstərmir, onların köməyinə tələsir.

* Allah yolunda heç nədən qorxmur, məzəmmətlərdən çəkinmir.

* Dində olan bidət və xurafatlara qarşı, habelə din adından suiistifadələrlə mübarizə aparır.

* Şəhidliyə olan şövqü hədsizdir.

* Qan qılınca qalibdir. Odur ki, bu məktəbdə ölən də, öldürən də qəhrəmandır.

## ÜÇRƏNGLİ AŞURA

Aşura faciəsi çox ağır və kədərli faciədir. Hətta südəmər körpələrə belə rəhm olunmayan bu hadisəni eşidəndə, insanın ürəyi qəmlə, qüssəylə dolmaya bilmir. Kəsilmiş başların əzizləri qarşısında, ailə-uşaqlarının gözü qabağında nizələrə taxılması, cansız cəsədlərin çapılıb-talanması, susuz uşaqların qamçı zərbələrilə "sakitləşdirilməsi", qız və gəlinlərin əsir halında şəhər-şəhər gəzdirilməsi və s., uyğun məktəbin qara rəngini təşkil edən məlum cinayətlərdən yalnız nümunələrdir.

Lakin bu, məsələnin bir tərəfidir. Kərbəla çölünün Aşura qonaqlarına digər aspektdən nəzər saldıqda və hadisənin ikinci səhifəsini vərəqlədikdə, onlarda olan güclü mənəvi və irfani hisslərin, Allahın iradəsi qarşısında təslimçiliklərinin şahidi oluruq. Bu səhifə eşq və məhəbbət vadisidir. Burada, son anları yaxınlaşdıqca daha da ruhlanan, üzündə fərəh əlamətləri sezilən hər bir şəhid, öz məşuqu qarşısında son imtahanını verir. Bu, Aşuranın yaşıl rəngidir.






Nəhayət, qırmızı rəng: mübarizə, qəhrəmanlıq və azadlıq rəmzi. Kərbəla çölünün bu qonaqları dini və ictimai məsuliyyətini dərk edən, cəmiyyətdəki neqativ hallara qarşı etiraz səsini ucaldan mübariz insan toplumudur. Bu insanlar birinci səhifədə nə qədər məzlum və ikinci səhifədə nə qədər aşiqdirlərsə, üçüncü səhifədə də bir o qədər mübariz, qətiyyətli və barışmazdırlar. Aşura məktəbi nə qədər qanlı-qadalı, nə qədər aşiqanədirsə, bir o qədər də sərt və zalım qarşısında əyilməzdir.

## ƏZADARLIĞIN ƏSL MAHİYYƏTİ

Kərbəla qəhrəmanlarına yuxarıdakı üç yönümdən nəzər salmaq səmimi göz yaşlarını ərməğan gətirir. Üstəlik, diqqət yetirmək lazımdır ki, onlar Peyğəmbər (s) və Əli (ə) övladları, məhəbbətləri vacib buyurulan Əhli-beyt (ə) üzvləridirlər.

İmam Hüseyn (ə) əzadarlığı, bu müsibətçün ağlamaq, sinə vurmaq, məlum şəhid və əsirlərin məzlumluqlarını, onların Allah qarşısında aşiqanə təslimçiliklərini xatırlatmaqla yanaşı, həm də insanlara mübarizə ruhu aşılayır. Hər il məhərrəm təziyəsini qeyd edən millət Aşura qiyamının səbəblərini təkrar-təkrar eşidir, zülmə və təcavüzə qarşı barışmazlıq dərsini öyrənir.

İmam Hüseyn (ə) öz qiyamı və şəhadətilə insanlara anlatdı ki, batil aşkar olduğu zaman haqqın onunla sülhə girməsi düzgün deyildir! İmam Hüseyn (ə) şəhid oldu ki, biz əsl İslamdan xəbərsiz olmayaq, münafiqlərin yalanlarına uymayaq, zalımlar əlində oyuncağa və istismarçılar qabağında yemə çevrilməyək.

İmam Hüseyn (ə) əzadarlığı Aşura məktəbinin daima xatırlanması, insani dəyərlərin təbliğ olunmasıdır. İmam Hüseyn (ə) əzadarlığı zalım və təcavüzkar əleyhinə fəryad qaldırmaq, Yezid və onun tərəfdarları əleyhinə nifrət hisslərinin, Hüseyn (ə) və onun tərəfdarlarına qarşı ülvi duyğuların təhrik olunmasıdır. Bu əzadarlıq Aşura məktəbinin dirçəldilməsi, onun ideyalarının davam etdirilməsidir; əlbəttə, əgər üçrəngli olub, hadisənin bütün cəhətlərini əhatə etsə.

Vüsal HÜSEYNZADƏ

# DÖVRÜMÜZÜN AŞURALARI

## HƏR GÜN AŞURA...



***Yeddinci əsrdə İraqın Kərbəla şəhərində bir faciə yaşandı:***

***Məhəmməd peyğəmbərin nəvəsi olan İmam Hüseyn elə müsəlmanlar tərəfindən vəhşicəsinə qətlə yetirildi. Onunla birlikdə azsaylı tərəfdarları, qohum-qardaşı da öldürüldü, şəhid ailələri əsir alınıb şəhər-şəhər gəzdirildi, təhqir və işgəncələrə məruz qaldı. O gün məhərrəm ayının onu olduğundan, uyğun hadisə də tarixə Aşura adı ilə düşdü. Amma bu, ilk aşura olsa da, sonuncusu olmadı.***

Aşura faciəsi bütün müsəlmanların, əsasən də Əhli-beyt davamçılarının fərdi, ictimai və siyasi həyatında çox ciddi təsir buraxmışdır. Bu hadisədən bir neçə il ötdükdən bu günə qədər çoxlu qiyam, inqilab və digər siyasi hərəkatlar məhz Aşura qiyamından ilham almışdır. Əsrlər boyu Əhli-beyt tərəfdarlarının məhərrəm ayında keçirdikləri matəm tədbirləri, əzadarlıqlar bilavasitə Aşura faciəsi və onun qurbanlarından ötrüdür. O zamandan indiyədək insan oğlunun başına gətirilən faciələr, çəkdiyi müsibətlər də Aşura faciəsinin davamı, öz dövrünün aşuralarıdır.

Uzağa getməyək, ötən əsrdə öz ölkəmizdə baş verən aşuralara nəzər salaq: 1905-ci il aşuraları, 1918-ci il 31 mart aşurası, 1920 və 1937-ci il aşuraları, 1990-cı il 20 yanvar aşurası, 1992-ci il 26 fevral aşurası, 8 may Şuşa, 17 may Laçın aşuraları və sair. Bir qədər kənara çıxsaq, Fələstin, Livan, Əfqanıstan, İraq, Bəhreyn və digər aşuralar...

Sadaladığımız və sadalamadığımız bütün humanitar faciələri "aşura" adlandırmağımız əbəs deyil. İslam alimlərindən birinin toxunduğu məqama diqqət yetirin: "Tarixin hansı dönəmində, dünyanın hansı nöqtəsində haqq əzilirsə, haqq öldürülürsə, orada Əli öldürülür. Çünki Peyğəmbərimizin hədisinə əsasən, "Əli haqladır və haqq Əli ilə". (Heysəmi, 7/235)

Bu düsturu İmam Hüseynə aid etdikdə də nəticə oxşardır. İmam Hüseyn bir dəfə öldürülmədi. Harada məzlum insan öldürülür, mübariz kütlələr məhv edilirsə, orada Hüseyn öldürülür; harada cinayət baş qaldırır, zalımlar hakim olursa, orada Yezid hökmranlıq edir, İbn Ziyad meydan sulayır. Çünki Hüseyn yazıq və məzlum kütlələrin rəhbəri, azadlıq rəmzi, zalımlar əleyhinə mübarizə simvoludur. Hüseyn öz hərəkat, bəyanat və çıxışlarıyla təkcə Yezid əleyhinə deyil, dünya durduqca bütün zalım, işğalçı və təcavüzkarlar əleyhinə üsyana qalxdı. Buna dəlil olaraq o həzrətin bəzi sözlərinə nəzər salaq: "Müsəlman ümmətinə Yezid kimi birisi rəhbərlik edəcəksə, İslam dini ilə vidalaşmaq lazımdır"; "Mənim kimisi Yezid kimisinə beyət etməz"; "Qiyam etməkdə məqsədim yaxşı işlərə dəvət etmək, pis işlərdən çəkindirmək, babamın və atamın yolu ilə getməkdir".

Bu və digər cümlələrilə İmam Hüseyn öz qiyamının ümumbəşəri olduğunu, Yer üzünü fəsada aparan bütün zalımlar əleyhinə reallaşdığını göstərir və belə deməyə əsas verir: İmam Hüseyn təkcə Yezid əleyhinə deyil, bütün zalımlara qarşı ayağa qalxdı. O, dünya durduqca məzlumların lideri, azadlıq mübarizələrinin ideoloji rəhbəri olaraq qalacaqdır.

Mövzudan yayınmayaq. Dedik ki, aşura yalnız bir gün deyil, bəşər tarixi indiyədək minlərlə, milyonlarla aşuranın şahidi olub. Və İmam Hüseyn aşurası bu aşuraların başında durur. İmam Hüseyn aşurasının qəhrəmanları, onu doğuran səbəblər və özündən sonrakı dönəmdə buraxdığı təsirlər digərlərindən müqayisəolunmaz dərəcədə fərqlənir.

İmam Hüseyn aşurasına qarşılıq vəzifələrimiz az-çox bəllidir. Əhli-beyt tərəfdarları qışın soyuğuna, yayın istisinə, yolun uzunluğuna baxmayaraq, hər il bütün dünyada təziyə məclislərinə yığışır, İmam Hüseyn üçün göz yaşı tökürlər. Bəs dövrümüzün aşuralarına qarşı mövqeyimiz necə olmalıdır? Görəsən, İmam Hüseyn aşurasını böyük təntənə ilə qeyd edib, digər aşuralara biganə qala bilərikmi?! Qurani-kərimə və Peyğəmbər sünnəsinə əsaslanaraq uyğun suala qətiyyətlə

"yox" cavabını vermək olar. Quranda belə oxuyuruq: "Bütün möminlər qardaşdırlar" (Hucurat/10). Peyğəmbərimiz isə belə buyurub: "Müsəlmanların problemlərinə biganə qalan müsəlman deyil" (Kuleyni, 420).

Bəli, bunlar müsəlman aşuraları haqda. Lakin məsələnin qoyuluşu bir qədər fərqlidir. Əslində, təkcə müsəlmanların faciəsi deyil, bütün insani faciələr İmam Hüseyn bədəninə vurulan yaradır. Yer üzündə nahaq tökülən bütün qanlar müqəddəsdir. İmam Əlinin xilafəti dövründə soyğunçular müsəlman olmayan bir qadını qorxudub zinət əşyalarını almışdılar, ona kömək edən olmamışdı. Xəbəri eşidən imam buyurmuşdu ki, belə bir hadisəyə görə bağrı çatlayıb ölən kimsəni qınamaq olmaz. Peyğəmbərimizsə belə hadisələrə biganə qalanları ümumiyyətlə, müsəlman saymır: "Kim bir insanın "ey müsəlmanlar!" - deyə çağırdığını eşitsə, lakin köməyə getməsə, müsəlman deyil" (Kuleyni, 420; Tusi. Təhzib, 6/175). Yəni təkcə Qarabağda, Fələstində, İraqda, Yəməndə və ya Kəşmirdə müsəlmanlara yox, hətta Anqolada, Panamada və yaxud Mozambikdə qeyri-müsəlmanlara da zülm olunsa və biz biganə qalsaq, müsəlman deyilik! Qurani-kərimin belə bir zamana görə dəvəti isə daha maraqlıdır: "(Ey müsəlmanlar!) Sizə nə olub ki, Allah yolunda və (zalımların əlində) aciz qalmış kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?!" (Nisa/75)

Beləcə, çətinləşir müsəlmanın işi. İslamda biganəlik yoxdur. Müsəlman təkcə müsəlmanların deyil, bütün insanların probleminə diqqətlidir. Müsəlman öz peyğəmbərindən insanlıq, xeyirxahlıq dərsini öyrənib, hətta kafirin də halına laqeyd qalmayan Əlinin davamçısıdır. İslam dini ədalət naminə Hüseyn kimi qurban verib. Elə buna görə də, müsəlman haqsız öldürülən insanları, zülm altında inləyən kütlələri gördükdə istər-istəməz Hüseyni xatırlayır. Onun üçün Qarabağ da, Fələstin də, Bosniya da, Bəhreyn də, Nigeriya da Kərbəla ola bilər. Həqiqi İslamı başa düşən hər kəs Adəm övladının başına gətirilən faciəvi səhnələrə, düşmən əlində qalan torpaqlarımıza, mal tövləsinə çevrilmiş məscidlərimizə, yerlə-yeksan edilmiş qəbiristanlıqlarımıza, hər an təcavüzə məruz qalan



müsəlman əsirlərinə diqqətlə baxsa, Qəzzada, Kobanidə qətlə yetirilən məsum körpələrə, fosforlu bombaların alovundan gözünü, qulaqbatırıcı gurultudan ağlını itirən, səksəkəli halda "ana, ana!" hayqıran körpələrə, tükürpədici səslə vəhhabi terrorçusuna "atamı niyə öldürdün, niyə, niyə?" bağıran azyaşlı uşağa, İraqda, Suriyada, Karaçidə qəddarlıqla məhv edilən Adəm balalarına, İsrailin Telmud həbsxanalarında işgəncədən şikayət eləyən qadınlara baxsa, görər ki, ora Xocalı deyil, Qəzza deyil, Mosul deyil, ora Kərbəladır, İmam Hüseynin qətlgahıdır. Görər ki, bu günlər 26 fevral deyil, 8 may deyil, 2014-cü ilin yayı, payızı deyil, bu günlər aşura günü, hicri 61-ci il məhərrəm ayının onudur. Görər ki, bu yerlərdə İmam Hüseynin başı Şimr əlindədir, bu yerlərdə Zeynəbi və Hüseynin yetim balalarını əsir aparırlar. Bütün bu yerlərdə yandırılan çadırların tüstüsü ilə birgə həm də Əhli-beyt ailəsinin ah-nalələri göylərə ucalır...

Kimsə məni İmam Hüseyni və onun aşurasını kiçiltməkdə günahlandırmasın. Məgər İmam Hüseyn nə üçün canından keçdi?! Bundan ötrü canından keçdi ki, üstündən 1350 il keçəndən sonra haqqında yazılan gözəl şeirlərə, məlahətli səslə oxunan rövzələrə qulaq asıb ləzzət alaq, yaxud sinə vurub ağlayaq?! Məgər imamlarımız əzadarlıq haqqında bu qədər tövsiyələri ondan ötrü eləməyiblər ki, biz "hər gün Aşura, hər yer Kərbəladır!" dərsini öyrənək?! Məgər dünyanın dahi şəxsiyyətləri Aşura qiyamını örnək seçərkən İmam Hüseynə rövzə oxuyub ağlamağı nəzərdə tuturdular, yoxsa onun fədakarlığını, mübarizliyini, müqəddəs amalı uğrunda hər şeyini qurban verməsini?!...

Söz yox ki, İmam Hüseynə əza saxlamağın böyük savabı var. Bunu heç kəs dana bilməz. İmam Hüseyn üçün tökülən ayıq göz yaşı bir insanın, bir xalqın taleyini dəyişdirmək iqtidarındadır. Məhərrəm təziyəsində ixlasla xidmət göstərən hər bir kəs gözlədiyindən də artıq mükafat alacaq. Lakin məsələ burasındadır ki, bunlar məqsəd deyil, vasitədir. Əza saxlamaqla vəzifə bitmir. Bütün bu əzadarlıqlar Aşura məktəbinin və İmam Hüseyn ideallarının yaşaması üçündür. Biz İmam Hüseyn aşurası üçün əzadarlıq edib, dövrümüzdə yaşanan aşuralara biganə qala bilmərik. Bu gün dünyanın müxtəlif bölgələrində baş verən faciələr hər bir müsəlmanın dərdi olmalıdır. Bu gün Yezidin sadiq ardıcılları olan İŞİD terrorçularının vəhşi cinayətləri bütün bəşəriyyəti və öncəliklə müsəlmanları incitməli, kafir, müşrik adlandırmaqla özlərindən başqa hamıya – xalqa, vətənə, torpağa qarşı nifrət hissi aşılayan sələfi, vəhhabi təfəkkürünə və onların himayədarlarına qarşı da səfərbər etməlidir. Hüseyn davamçılarının yolu budur.

**Vüsal Hüseynzadə**

# EY HÜSEYN İBN ƏLI...!

## PEYĞƏMBƏRİN (S) GÖZÜNÜN NURU

***Ey Hüseyn ibn Əli! Sən beş nəfərdən birisən. Hansı ki, Allah onları bütün günahlardan arındırıb, öz bəndəliyi yolunda bütün büdrəmələrdən, uzaq edib, bütün kamilliklərlə bəzəyib, bütün yüksəkliklərə ucaldıb, bəşəriyyətin qaranlıqlardan aydınlığa çıxması, insani fitrətə qayıtması, özünə dönməsi üçün bütün insanlar içindən seçib.***




Ey Hüseyn ibn Əli! Sən o ailədənsən ki, Allah onları sevməyi və onlara itaət etməyi Öz kitabında hər kəsə vacib edib.

Ey Hüseyn ibn Əli! Sən İslam Peyğəmbərinin gözünün nuru idin. Səni öpərdi, qoxulayardı, sevib oxşayardı. Sevgi yağan gözlərlə, təbəssüm dolu üzlərlə sənə baxardı, şirin-şirin sözlərlə səninlə danışardı, gözləri yaşla dolardı... süzülərdi nurlu üzündən acı həsrət yaşları...

Ey Hüseyn ibn Əli! Sən Məhəmməddən, Məhəmməd də səndən idi. Bunu özü buyurmuşdu, özü duydurmuşdu. Sənin yolun eynilə onun yolu idi, amalın onun amalı idi, onun məqsədini izləyirdin, yolunu gedirdin. Eyni ağacdan idiniz, eyni torpaqda kök atmışdınız, eyni səmaya yönəlmişdiniz, eyni işıqla işıqlanmışdınız... Sən onun zəhmətlərini puç olmağa qoymadın, ey Hüseyn, izinin silinməyinə, ləpirlərinin itməsinə imkan vermədin. O səni tanıyır və səninlə fəxr edirdi.

Ey Hüseyn ibn Əli! Sən hidayət çırağı və nicat gəmisi idin. Bunu da Allahın doğru danışan dili, Rəbbimizin Elçisi buyurdu. O işığa üz tutanlar işıqlandı, yolu gördü, yol aldı. O hidayət mayakını görən tufanlı dəryadan sahili gördü. O gəmiyə minən həyat burulğanlarında sarsılmadı, titrəmədi, əsmədi, yıxılmadı, batmadı, boğulmadı, azadlıq və nicat sahilinə yan aldı. O gəmiyə minən gördü ki, bütün gəmilər tufan ağzında gedir, dalğalara əsir olub, içi boş çəllək kimi yırğalanır... Ancaq sənin gəmin, ey Hüseyn, aram-aram, mətin-mətin, əmin-əmin üzü sevinc, təravət, şadlıq, xoşbəxtlik qəhqəhələrinin sardığı həyat və əbədiyyət sahilinə yaxınlaşırdı...! Nə gözəl gəmin var, sərvərim! Nə gözəl müsafirlərin var, ey həyat gəmisinin rəhbəri!

Ey Hüseyn ibn Əli! Bir gün Allaha ən yaxın və ən əziz insan – həzrət Məhəmməd – sənin baban minbərdə söhbət edirdi. Sən girdin məscidə, camaatın içi ilə irəlilədin babana doğru və qəfil dolaşdı ayağın, ilişdi ayağın və üzüqoylu yıxıldın... Ah, düşdün at üstündən yerə və torpağa bələndin. Dözmədi baban, tələsə-tələsə aşağı endi uca cənnətlərdən, sənin səhrana tələsdi, durquzdu səni, aldı ağuşuna, basdı bağrına, öpdü üz-gözündən. Hələ başın bədəndə idi... Onda çox şeyi başa düşməyən birinci sinif İslam şagirdləri gözlərini döyə-döyə baxırdılar üzlərdə təəccüb... Onda baban: “Bunu mənə Allah əmr etdi.”- dedi... Görəsən, başa düşən oldumu sən kimsən, necə dəyərlisən?! Bəli, baban Allahın səninlə bağlı əmrini tələsə-tələsə yerinə yetirirdi, sənə sevgi əmrini ifadə etməyə gecikmirdi... Ancaq onun ümməti çox gecikdi, ey Hüseyn...!

Ey Hüseyn ibn Əli! Allaha, babana, atana, anana, qardaşına-siz Allah ailəsinə düşmən olanlar hər şeyin əvəzini çıxdılar səndən... Yaxşılığa, həqiqətə, düzlüyə, sədaqətə, etibara, gözəlliyə, işığa, aydınlığa, yaşıllığa,




canlılığa və həyata nifrət edənlər bütün bunların hamısına sahib olan sənə nifrət etdilər və sənin işığını söndürməyə cəhd etdilər. Heyhat, heyhat! Məgər işığını Allahdan alan gur işıqlı çıraq da sönərmi üfürməklə?! Məgər sən cisim idin ki, cismini öldürməklə öləsən. Xeyr, xeyr, sən həqiqətin özüsən, gözüsən, sən heç zaman ölməyən, sönməyən, köhnəlməyən, dövrlər keçsə də dəyişməyən haqsan, haqqa bağlısan, haqdansan, haqlasan, üzü haqqa doğrusan, özü haqqa sarısan, həqiqət karvanının sarbanısan.

Ey Hüseyn ibn Əli! Daim yaşardır Həqiqət! Yaşayırdın buna görə, yaşayırsan buna görə. Düşmənlərinsə yaşamadılar heç vaxt... Həmişəyaşar Həqiqətin yanında olmayanlar yaşadıqlarını güman edən meyitlərdir-nəfəs alan, əl-ayaq tərpədən meyitlər!

Ey Hüseyn ibn Əli! Mədinə şahid idi sənin gecələrinə. Şəhərdəki ayıq-sayıqlar, gözlərini axirət üfüqünə zilləmiş oyaqlar, haqqa doğru yol alanlar sənin parıltını və sənin nurunun səmalara yol açan şöləsinin göylərə yayıldığını görürdülər. Sənin işığın ulduzların gözünü qamaşdırırdı onda... gözlərini tez-tez qırpırdı ulduzlar, özündən gedib axırdı ulduzlar...

Ey Hüseyn ibn Əli! Sənin Quran tilavətin nə həzindi, nə şirindi...! Qəlbi oxşayır, ruhu çulğayır, könlü titrədirdi, qəlbi təlatümə gətirirdi. Quran sənin gözünün nuru idi, qəlbinin sevinci idi. Sən heç vaxt Qurandan ayrı düşmədin.

Ey Hüseyn ibn Əli! Qəflətdən ayılanlar səninlə ayılır, Rəbbə sarı yüksələnlər sənin əlindən tutub, sənin işığına sığınırdılar, sənin elm və hikmət bulağından içib susuzluqlarını yatırırdılar. Rəbbə sarı gedən yolda könüllər titrədiyi, gözlər səyridiyi, ayaqlar əsdiyi, büdrədiyi bir zamanda sən zərrə qədər qorxu-hürkü keçirmirdin, bu bəndəlik yolunu dəfələrlə getmişdin, gəlmişdin, indi isə gedənlərə yol göstərirdin. Sən olmasaydın, bizim axırımız nə olardı, bu qorxulu vadini, bu vahiməli səhranı necə qət edərdik, ey Hüseyn! Ey Peyğəmbərimizin hidayət işığı!

Ey Hüseyn ibn Əli! Duymuşdun ibadətin həzzini, çəkmişdi ərşə yuxunu sənin Allaha, Allahın sənə sevgisi. Eşqində sədaqətli idin. Yuxularını azaltmışdın. Oyanardın gecələr, sübhə kimi dinləyərdin sevgi mesajlarını, dalardın səcdəyə anbaan, dəqiqə-dəqiqə, saat-saat... Açılma, ey səhər, açılma! Doğma, ey dan yeri, doğma, sönməyin, ey ulduzlar sönməyin...! Hələ ürəyimdə deyilməmiş sözüm var, qəlbimi yandırıb-yaxan közüm var. Ayırmayın məni sevgilimdən. Ah..., ey sevgilim! Ah..., ey sərvərim! Sənin eşq alovun şöləsi vücudumu yandırıb yaxdı, sənə qurban olsun, bu Hüseyn canı! Atam-anam, qardaş, bacım, sənə qurban! Bu uşaqlarım sənə qurban, varım, olan-qalanım da sənə qurban, ey mənim ağam, ey mənim sərvərim! Gündəlik işlərim məni səndən ayrı salır, sənin cilvələrin gözümü qamaşdırır, çək kənara pərdələri, camalından heç zaman ayrı salma məni tamaşandan...!

Ey Hüseyn ibn Əli! Ey İmam oğlu, İmam qardaşı, imamlar atası. Babası pak, ata-anası pak, qardaş-bacısı pak, oğlanları pak, nəsli pak! Ey pakların sərvəri! Ey paklanmışların sərvəri! Ey paklanmaq istəyənlərin öndəri, örnəyi! Ey parlaq aylar, ulduzlar oğlu! Ey saçan günəşlər övladı! Ey Məkkə və Mədinə yadigarı! Ey Səfa və Mərvənin göz bəbəyi! Ey Kəbənin iftixarı! Ey öz qanı ilə Kəbəni saxlayan...! Ey yaxşı insan, ey yaxşılığın mənası, ey yaxşılığın özü! Ey yaxşılıq çeşməsi!

Ey Hüseyn ibn Əli! Babanı gördün yuxuda, öz şəhərində, öz məscidində, gəldi sənin yanına, basdı səni bağrına... Artıq sənin də saç-saqqalın onunku kimi ağarmışdı... O uşaq Hüseyn hara getdi? Qəlbi qəmlər dəryası olmuş bu yaşlı kişi kimdir? Ancaq sən baban üçün daim kiçik Hüseynsən, kiçik və sevimli Hüseyn

olaraq qalacaqsan. O, səni səslədi, səni çağırdı, səni əbədiyyət mənzilinə dəvət etdi, gəl dedi, hamımız səni gözləyirik. Dur ayağa, Allah ağacı xətərdədir, kökünə balta çalmaq istəyirlər, qurdlar kökünü gəmirir, murdarlar dibini murdarlayır, qov o itləri, Hüseyn! Dur, dur ayağa ey Hüseyn! Qov gözündən mürgünü, qaldır ayağa ümməti, silkələ yuxuda olanları, oyat qəflətə dalanları! Bu ümmətə nə olub ki, Allah dərgahında olanlara ölü deməyə başlayıblar! Nə tez unuduldu ümmətin mehriban atası?! Məhəmməd aranızda olmasa da, onun işığı aranızdadır, onun yolu içinizdədir, onun sevdiyi, seçdiyi Hüseyni sizinlədir... Ey mənim unutqanlarım!

Ey Hüseyn ibn Əli! Ey mərd oğlu mərd! Ey comərd oğlu comərd! Ey igid oğlu igid! Ey şir oğlu şir! Ey nər oğlu nər! Sən Kərbəlada Allah düşmənlərini, dəyərləri çeynəyənləri bir-bir, iki-iki, üç-üç qırıb-tökürdün, bu iyrənc ilmələri dartırdın, sökürdün... İyrənc oğlu iyrənc görəndə ki, şir oğlu şirlə bacarmaq mümkün deyil qışqırdı: "Təkbaşına getməyin! Qarşınızdakı ərəblərin qatili Əlinin oğludur!" Onda sənə sarı hər yandan nakişilik nizələri, xəyanət oxları, hətta, sərvərim, əskiklik daş-kəsəyi yağmağa başladı. Nakişilər dünyasında yaşamaq kişilərə ardır! Sən də bu arsızlar diyarından köçdün, getdin... Uca ruhun bir an dayanmadan səmalara pərvaz etdi...

Ey Hüseyn ibn Əli! Ey Alim oğlu alim! Arif oğlu arif! Abid oğlu abid! Kimsəyə sual vermədin, sənin kimsəyə ehtiyacın yox idi. Sən elm və hikmət suyunu içmişdin. Bu çeşmə sonsuzluq ümmanına qovuşmuşdu. Daim sənə doğru susuz suallar yağırdı və sən onları sirab edirdin. Sən bu ümmətin sığınacaq yeri idin. Görən gözlər bunu görməli idi, duyan qəlblər bunu bilməli idi. Ancaq qəlbi xəstələr, xəstəliyi sevənlər, nəfsinə kölə olanlar, quldarlığa, qul olmağa heç vaxt arxa çevirməyənlər, qul olmağı sevənlər, qul olmağa razı olanlar, içləri qap-qara qaralanlar bunu necə başa düşəydi, səni, sənin işığını necə görə biləydilər?! Heyf sənə, ey Hüseyn! Heyf sənə, ey kamil insan! Heyf sənə, ey bəşəriyyət atası! Ey Allahın bir dünya ömürdən sonra yetişdirdiyi ən dadlı, ən şirin, ən ətirli, ən xalis, ən parlaq insan meyvəsi! Allah, Sən insanı yaradanda bu meyvəni yetişdirməyi qarşısına məqsəd qoymuşdun, deyilmi?! Və yetirmişdin! Allah, Sənin zəhmətlərinin əvəzi bu mu olmalı idi?! Ah..., Sən o meyvəni bizim üçün yetişdirmişdin... Heyf sənə, Allah...!

Ey Hüseyn ibn Əli...! Ey namaz qılan, oruc tutan, zəkat verən, yaxşılığa dəvət edən, pis işlərdən çəkindirən!

Ey Hüseyn ibn Əli...! Kəlamın nur, əmrin tərəqqi, vəsiyyətin təqva, işin xeyir, adətin ehsan, səciyyən kərəm...əgər xeyirdən danışılsa, sən onun əvvəlisən, əsasısan, budağısan, mədənisən, əvvəlisən və sonusan.

Ey Hüseyn ibn Əli...! Sizdən üz çevirən dindən çıxıb. Sizinlə olan sizə yetişib, haqqınızda səhlənkarlıq edən həlak olub,... sizi sevən səadətə yetişib, sizə düşmən olan məhv olub. Sizi inkar edənin ümidi kəsilər, sizdən ayrılan yolunu azar, sizdən yapışan arzusuna yetişər, sizə pənah gətirən əmin-amanlıqda olar, sizi təsdiq edən salamat qalar, sizə arxalanan hidayət olunar. Sizə tabe olanın yeri cənnətdir, sizinlə müxalif olana cəhənnəm məkandır.

Ey Hüseyn ibn Əli! Hər kəs sizə itaət etsə, Allaha itaət etmiş və hər kəs də sizə qarşı çıxsa, Allaha qarşı çıxmışdır. Hər kəs sizi sevsə həqiqətən, Allahı sevmiş və hər kəs də sizinlə düşmən olsa, Allahla düşmən olmuşdur.

Ey Hüseyn ibn Əli...!

**Dilman Şahmərdanlı**



# İMAM HÜSEYN VƏ ƏZADARLIQ

***Artıq on dörd əsrə yaxındır ki, İmam Hüseyn (ə) aşiqləri məhərrəm və səfər ayları boyu o Həzrətə və ailəsinə rəva görülmüş zülmləri, sitəmləri yad edərək əzadarlıq edir və bu ağır müsibətə göz yaşı axıdırlar. Onlar İslam Peyğəmbərinin buyurduğu bu kəlamın həqiqətini öz rəftarlarında çox gözəl nümayiş etdirmişlər: "Həqiqətən Hüseynin şəhid edilməsi ilə bağlı möminlərin qəlbində sönməyən bir hərarət vardır".***



*İnsanların əsrlərlə qəlblərində yaşatdığı bu eşq O həzrətin İslam, Quran və ümmətin nicatı uğrunda özündən və ailəsindən keçməsi ilə bağlıdır.*

*Bu yazımızda "İslamın əzadarlığa baxışı", "Əhli-sünnə kitablarında əzadarlıq" və "İmam Hüseynə ağlamağın fəzilətləri" mövzularına qısaca da olsa işarə edəcəyik.*

## 1. İslam və əzadarlıq

Qurani – Kərimdə əzadarlıqla bağlı dəqiq hökmlər olmasa da, bir-çox ayələrdə zülm əleyhinə fəryad etmək, ürəklərdə Əhli-beyt (ə) məhəbbətini yaşatmaq, yaxud bəzi peyğəmbərlərin yas saxlamaqları ilə bağlı ayələr vardır.

Əzadarlıqla bağlı nəql olunmuş hədislərə gəldikdə isə deməliyik ki, bu barədə nəql olunmuş rəvayətlər həddən ziyadədir. İmam Sadiq (ə) buyurmuşdur:

"Qadınlar müsibət zamanı göz yaşı axıtmağa, ağı deməyə ehtiyaclı olduqları üçün ağlaya bilərlər. Lakin bu iş onların ifrata varmalarına gətirib çıxartmamalıdır".

O həzrət yenə buyurmuşdur:

"Mən beş nəfər ağlayan şəxs tanıyıram: Adəm, Yəqub, Fatimə və Əli ibn Hüseyn. (ə) Adəmin ağlaması cənnətdən uzaq düşməsinə, Yəqubun ağlaması Yusifdən ayrıldığına, həzrət Fatimənin ağlaması atası Peyğəmbərə (s), İmam Səccadın (ə) ağlaması isə atası İmam Hüseynin (ə) şəhid edilməsinə görə idi".

Musəlmanlar "Ühud" döyüşündə yetmişə yaxın şəhid vermişdilər. Mədinədə hər kəs öz yaxınları üçün ağı deyir, göz yaşı tökürdü. Həzrət Məhəmməd (s) bu səhnəni gördükdə gözləri yaşla dolaraq buyurdu:

**"Əmim Həmzəyə ağlayan yoxdur".**

İbn Məsud deyir:

"Peyğəmbər (s) Həmzənin (r) cənazəsini üzü qibləyə qoyub, yaxşı əxlaqlarını xatırlayaraq ağlayırdı".

İslam Peyğəmbəri həzrət Məhəmməd (s) dəfələrlə səhabələrinin, o cümlədən Səd ibni İbadə can verdiyi zaman, Mədinədə qızlarının birinin məzarı kənarında, oğlu İbrahimin vəfatında, Osman ibn Məzunun ölümündə, Əbvada anasının qəbri kənarında, həzrət Əlinin (ə) və İmam Hüseynin (ə) şəhid olmasını xatırlayarkən ağlayardı.

Peyğəmbər (s) dünyasını dəyişdikdən sonra səhabələr ağlayıb, əzadarlıq etmişlər. Belə ki, Həzrət Zəhra (ə), Bilal, Qeys, Ümmü-Əymən və başqaları Peyğəmbərin ayrılığına görə ağlayıb, yas məclisləri qurmuşlar.

## 2. Əhli-sünnə kitablarında İmam Hüseynə (ə) ağlamaq

İmam Hüseynin (ə) müsibətinə görə yas saxlamaq, mərasimlər keçirmək haqqında Əhli-sünnə kitablarında da bir çox rəvayətlər qeyd edilmişdir. Qısaca onların bir-neçə nümunəsinə işarə edək.

Sələmi deyir: Ümmi Sələməni (Peyğəmbərin həyat yoldaşı) ağlayan halda gördüm. Səbəbini soruşduqda dedi: Yuxuda Allahın Rəsulunu saçı, surəti toz-torpaqlı halda gördüm. Soruşdum ki, sizin bu hala düşməyinizin səbəbi nədir ya Rəsulallah?

Buyurdu: "Bir az öncə Hüseynimin şəhid olmağını gördüm" ("Səhih Tirmizi", 2/ 306.).

Əli (ə) buyurur:

"Bir gün Peyğəmbərin (s) hüzuruna daxil olub o Həzrətin gözlərini yaşarmış gördükdə soruşdum:

Sizi niyə bu halda görürəm, ağlamağınızın səbəbi nədir?

Həzrət buyurdu: Cəbrayıl (ə) Hüseynimin Fərat çayı kənarında öldürülməsindən xəbər verərək dedi: Onun torpağını iyləmək istəyirsənmi?

Dedim: Bəli. Bu zaman Allahın mələyi Hüseynimin orada şəhid

olacağı torpağı mənə göstərdikdə özümü ağlamaqdan saxlaya bilmədim" (İmam Əhməd ibni Hənbəl- "Musnəd", 1/85.).

İmam Sadiq (ə) buyurur: "Həqiqətən Hüseynin qəbri kənarında yetmiş minə yaxın mələk qiyamət gününə qədər göz yaşı axıdır" ("Zəxairul-uqba", 151.).

İmam Hüseyn ibni Əli (ə) buyurur: "Allah-taala müsibətlərimizə ağlayan şəxsləri cənnətə daxil edəcəkdir" ("Zəxairul-uqba", 19).

**İmam Hüseynə (ə) ağlamağın fəzilətləri**

Rəvayətlərdə şəhidlər sərvəri İmam Hüseynə (ə) ağlayan, kədərlənən, yaxud növhə, mərsiyə oxuyan şəxslər haqqında çoxlu fəzilətlər qeyd edilmişdir.

İmam Rzadan (ə) nəql edilən bir rəvayətdə oxuyuruq:

"Ağlamaq istəyən şəxs İmam Hüseynə (ə) ağlasın. Çünki, O həzrətə ağlamaq günahların bağışlanmasına səbəb olur".

O həzrət yenə də buyurur:

"Ey Şəbib! Allah-taala İmam Hüseynə (ə) ağlayıb göz yaşı axıdanların günahlarını bağışlayacaqdır".

İslam Peyğəmbəri (s) öz qızı həzrət Fatiməyə (ə) xitab edərək belə buyurmuşdur:

"Fatiməcan! Qiyamət günü bütün gözlər ağlarkən Hüseynimə ağlayan gözlər gülər və cənnət nemətlərilə müjdələnər".

İmam Sadiqdən (ə) nəql edilən rəvayətdə Əhli-beytə (ə) ağlayanların Kövsər çeşməsindən sirab olacağı xatırlanır:

"Bizə ağlayan gözlər Kövsər hovuzunun suyu ilə sirab olacaq".

O həzrət ayrı bir hədisdə Cəfər ibn Uffana xitab edərək buyurur:

"İmam Hüseyn (ə) haqqında şer yazan, ağlayan, yaxud ağladan şəxslərə cənnət vacib ediləcək və günahları bağışlanacaq".

"Vəsailüş-şiə" kitabında qeyd edilən hədisdə İmam Sadiq (ə) camaatın İmam Hüseynə (ə) ağlayıb mərsiyə deməsinə görə Allaha şükür edərək buyurur:

"Allaha şükür edirəm ki, xalqın içində yanımıza gələn, biz Əhli-beyti mədh edən, mərsiyə deyən şəxslər qərar vermişdir".

Yaxud, İmam Rza (ə) Əhli-beyt (ə) şairlərindən biri olan Debələ buyurur:

"Mənə (İmam Hüseyn haqqında) bir şer yazıb oxu, çünki, bu günlər (Aşura ərəfəsi) ailəmizə qəm, müsibət üz gətirən bir gündür".

**Niyam Aqil**

# İMAM HÜSEYN (Ə) ZİYARƏTİNİN SAVABI

***İslam dəyərlər dinidir. Onda vəd edilmiş mükafatlar insanların Allah üçün xalis əməllərinin nəticəsidir. Çünki Allah-Taala mükafatlandıranların ən ədalətlisi, ən yaxşısıdır və heç bir yaxşı əməlin mükafatını puça çıxarmır. "Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına görə sevincək olurlar" ("Ali-İmran", 171). "Həqiqətən, Allah yaxşı işlər görənlərin mükafatını zay etməz!" ("Tövbə", 120).***

*İnsanın yaxşı əməlləri nə qədər xalis olsa, Allah yolunda nə qədər çətinliklərə, məşəqqətlərə dözsə, Allah dərgahında mükafat və dəyəri də bir o qədər çox olacaq. Buna görə də ilahi peyğəmbərlər və məsum imamlar Allah yanında çox böyük məqama malik olmuşlar. Həmçinin (üçüncü imam) həzət Hüseyn ibn Əli (ə) Allah yanında uca məqama sahibdir. Bu məqam onun Peyğəmbərə (s) mənsub olduğu üçün yox, məqsədləri, xüsusiyyətləri, əməlləri, fədakarlıqları, canından keçməsi, Allah, islam və Quran yolunda, ilahi vəzifəsini həyata keçirmək yolunda çəkdiyi əzablar üçündür. Bu gün hamıya aydındır ki, əgər İmam Hüseyn (ə) Bəni-Üməyyənin böyük və rüsvayçı yanlışları qarşısında sakit qalsaydı, indi islamın yalnız adı qalmış olardı. Onun həqiqəti Bəni-Üməyyənin əsirinə çevrilərdi. Eşq və zəka qarışığı olan İmam Hüseyn (ə) fədakarlığı islamı məhv olmaq təhlükəsindən, Bəni-Üməyyə özbaşnalıqlarının əlinə düşməkdən xilas etdi.*

*Digər tərəfdən İmam Hüseyn (ə) bilirdi ki, sağ qalmaq üçün heç bir şansı yoxdur. Bilirdi ki, onlar onu şəhid etmək istəyirlər. Həmçinin kufəlilərin atasına və qardaşına qarşı etibarsızlığından xəbərdar idi. Buna baxmayaraq, bütün varlığı ilə (canı, yaxınları, övladları, səhabələri və s.) meydana atıldı və açıq üzlə, ilahi qəza-qədərə razılıqla Allahın dinini müdafiəyə qalxdı. Öz qanı ilə islam ağacını suvardı və islama yeni can verdi.*

*Hərçənd, daim böyük insanlar, ilahi övliyalar, peyğəmbərlər Allah yolunda canlarını fəda etmişlər. Amma İmam Hüseyn (ə) və silahdaşlarının bu şəkildə şəhid edilməsi, şəhid olduqdan sonra qarət olunmaları, qadınların və şəhid ailələrinin Yezid qoşunu tərəfindən əsir götürülməsi tarixdə misilsizdir.*

*Allah-Taala buyurur: "(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) de: "Ey Mənim iman gətirən bəndələrim! Rəbbinizdən qorxun. Bu dünyada yaxşılıq edənlərə (axirətdə) yaxşılıq (Cənnət) vardır. Allahın yeri genişdir (sizə bir çətinlik üz versə, başqa ölkələrə hicrət edə bilərsiniz). Yalnız (dünyada Allah yolunda çətinliklərə) səbr edənlərə (axirətdə) saysız-hesabsız mükafat veriləcəkdir!" ("Zumər", 10)*

*Bəşər tarixi İmam Hüseynin (ə) saysız müsibətindən daha ağır müsibət, onun səbrindən daha böyük səbir görübmü? Digər tərəfdən bütün müsibətlər və o həzrətin səbiri xalis Allah yolunda olmuş, zərrəcə şəxsi mənafe və həvəs yolunu tutmamışdır.*

*Bu məsələlərə nəzərən Allah İmam Hüseynə (ə) nə mükafat verməlidir ki, o həzrətin (ə) müsibətlərinə uyğun olsun və Allahın ədalətinə sığsın.*

*Bu səbəbdən Allah-Taala ona çoxlu mükafatlar vermişdir və onlardan biri bu dünyada izzət və əzəmətdir. Belə ki, bütün insanları o həzrətin (ə) pak məzarını ziyarət etməyə rəğbətləndirmiş, ziyarətçilərə çoxlu savab vəd etmişdir. Bu ilahi vədlərdən biri Şeyx Müfidin və başqalarının nəql etdiyi mütəvatir hədisdə öz əksini tapmışdır. İmam Cəfər Sadiq (ə) buyurmuşdur: "Kim Aşura günü İmam Hüseynin (ə) məzarını ziyarət etsə, elə bil ki, Allahın hüzurunda ərşin yüxarısında olmuşdur".*

*Əlbəttə, bu qəribə deyil. Çünki biz bu rəvayətin bənzərini Peyğəmbərin (s) məzarı haqqında da çox oxumuşuq.*

*İmam Rza (ə) Allahı ziyarət etməyin mənası haqqında buyurur: "Allahı görmək və ziyarət etmək mümkün olmadığı üçün Peyğəmbərini (s) ziyarət etməyi özünü ziyarət etmək kimi qiymətləndirmişdir".*

*Əlbəttə, diqqət yetirmək lazımdır ki, İmam Hüseynin (ə) ziyarəti o həzrətin uca məqsədlərinin yaşamasını və bununla da Allah və Quran göstərişlərinin yaşamasını gerçəkləşir.*

# AŞURA MESAJLARI

**Birinci hissə**

Artıq Məhərrəmlik ayının başlanması hamımıza bəllidir. Allaha şükürlər olsun ki, bu münasibətlə yazarlar, xətiblər, tarixçilər, şairlər imkanları qədərincə bu ayda baş vermiş böyük bir tarixi faciəni vətənimizdə və dünyanın müxtəlif ölkələrində insanlara çatdırmaqdadırlar. Elə məhz bu səbəbdən bir neçə hissədən ibarət olacaq yazının adını "Aşura mesajları" qoydum. Min dörd yüz il bundan öncə baş vermiş hadisədə Hüseyn ibni Əlinin(ə) eşq karvanı qiyamətə kimi bizə hansı mesajları verir? Təbii ki, bu mesajları tarixi oxumadan, peyğəmbər ailəsinin məqamını tanımadan və məhz qiyamın səbəblərini araşdırmadan kimsə dərk edə bilməz. İstənilən bir tarixçi ilk baxışdan bu hadisəni mütaliə edərkən ilk olaraq zehninə bu gələcəkdir "1400 il öncə müsəlman dünyasında iki qoşun üz-üzə gəlmiş və birinin sayı çox, o birinin sayı az olmuşdur. Təbii ki, çox aza qalib gələcəkdir. Vəssəlam."



Amma gəlib bu yerə çatanda ki, döyüş sərkərdəsi öz altı aylıq körpəsini qoşunun qabağına çıxarıb onun üçün su istəyərkən su əvəzinə onu qanla suvarıblar, artıq döyüşü iki qoşunun döyüşü deyil, məzlumun zalimin zülmünə məruz qaldığını anlayacaqdır. Amma firqəsindən asılı olmayaraq istənilən bir müsəlman bu tarixi faciəni oxusa öncə Yezid ibn Müaviyənin necə İslam dininin əhkamına qarşı çıxdığını və peyğəmbər ailəsinə zülm etdiyini başa düşəcəkdir. Və vicdanı təmizdirsə bu sual onu düşündürəcəkdir "belə bir günahkar Həmzənin, Bədr və Ühüd şəhidlərinin, peyğəmbərimizin döyüşdə sınmış dişinin bahasına ələ gəlmiş İslam ümmətinin rəhbəri ola bilərmi?" Budur Aşuranın ilk mesajı Yezid ibni Müaviyənin ifşası ilə başlayır. Beləcə Aşura məktəbi bizlərə qan bahasına, can bahasına, peyğəmbər ailəsinin əsir olması bahasına zalimin ifşasını öyrədir. Amma sual oluna bilər ki, "İmam Hüseyn(ə) Müaviyə həyatda olan zaman 11 illik imamət dövründə nə üçün qiyam etmədi? Məgər o zamanda zülm yox idimi?" bu sualın bir çox cavabı var. Amma biz iki ümdə yanaşma ilə bu sualı cavablandıraraq əsl mətləbə keçəcəyik.

Birincisi İmam Həsənlə (ə) Müaviyə arasında olan sülhnamə imama qiyam imkanı vermirdi. Hiyləgər Müaviyə bundan məharətlə istifadə edər və imamı vədə xilaf çıxmaqda ittiham edərdi. İkincisi isə Müaviyənin insanlar arasında şöhrəti idi. Bəziləri (xüsusən Şamindiki Suriya şəhərində) onu səhabə, vəhy katibi və mömin bilirdilər. Belə olan halda onun qəsbkarlığını, zülmünü və digər cinayətlərini tam ifşa etmək çətin olardı.

**Yezid ibn Müaviyənin ifşası**

Allah-təala mübarək Qurani-Kərimdə buyurur: ***Haram aylar (onlara möhlət verilmiş zülhiccə, məhərrəm, səfər və rəbiüləvvəl ayları) çıxınca müşrikləri harada görsəniz, öldürün, yaxalayıb əsir alın, həbs (mühasirə) edin və bütün yollarını – keçidlərini tutun. Lakin əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın (işiniz olmasın). Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!*** (Tövbə surəsi. Ayə 5. Əlixan Musayev və Ziya Bünyadovun tərcüməsi)

Ayədə sözü gedən haram aylardan biri də məhərrəm ayıdır ki, bu ayda qan tökmək və müharibə etmək haramdır. Bildiyimiz kimi, İslam dininin əvvəllərində böyük İslam Peyğəmbəri üç il müsəlmanlarla birgə "Əbu Talib dərəsində" (Şeybi Əbu Talib) müşrüklər tərəfindən mühasirədə qalmışlar. Amma bu üç ay həzrəti İbrahimin dövründən onlar üçün də haram aylar buyrulduğu üçün adət olaraq bu aylarda müharibə və kimsəyə zülm etməzdilər. Həmçinin bu ayda müsəlmanlar dərədən çıxıb evlərinə gəlir və Məkkə şəhərində asudə gəzə bilirdilər. Yezid isə bu

müşrüklərdən fərqli olaraq Allahın ayələrinə diqqət yetirmir və bu ayda belə qan tökməkdən əl çəkinmədi. Aşuranın bizə ilk mesajı Yezidin açıq-aşkar fasiq və günahkar biri olmasının təsdiqidir. Odur ki, hər kəs Üməyyə üzqaralarının şahı Yezidi müdafiə etmək istəsə gərək ilk öncə bu cinayətə cavab versin.

**İkinci hissə**
**Din müdafiəsinin kulminasiyası**

"İlahi, sən yaxşı bilirsən ki, mənim qiyamım hökümət, dünya malı, şan-şöhrət üçün deyil, əksinə məhz İslam dininin sağlam şəkildə bəşəriyyətə çatdırılması üçündür ki, insanlar haqq və aydın olan yolu tanımaqla dünyada azıb qalmasınlar". (Təhful Uqul)

Bildiyimiz kimi müqəddəs İslam dinin əsas və böyük hədəflərindən biri də haqla-batilin bir-birindən ayrılması və bəşəriyyəti düzgün istiqamətləndirməkdir. Bunun üçün də Ulu Yaradan digər canlılardan fərqli olaraq insanlara əqil və zəka bəxş etmiş, eyni zamanda haqla-batilin meyarlarını insana tanıtdırmışdı. Hətta müqəddəs Qurani-Kərimdə bu barədə dəfələrlə insanlara haqqın meyarlarını insanlara çatdırmış və bəşəriyyəti onun müdafiəsinə dəvət etmişdir. Bu səbəbdən insanlara qulaq, göz, dərk verməklə yanaşı, nə üçün əqil verdiyini də izah edərək, bunun qarşılığında məsuliyyət daşımağımızı bizə əmr etmişdir (İsra-35). Bir sözlə yaşadığımız həyat boyunca batilə meydan verməyəcək və haqqı mövzusundan asılı olmayaraq ibraz edəcəyik.

Allah-təalanın bizə verdiyi əqil nemətinin qarşılığında növbəti məsuliyyətimiz isə insanları yaradılışın əsas hədəfinə dəvət edərək, bu yolda onlara nicat bəxş edən, haqq olan dinin müdafiəsidir. Tarix boyunca biz bütün ilahi peyğəmbərlərin dinin müdafiyəsi üçün çalışdıqlarını, bu yolda əzab-əziyyətə qatlaşdıqlarını və dəfələrlə din düşmənləri ilə müharibələrini tarixin unudulmaz səhifələrindən mütaliə edirik. Mövzumuzun daha aydın olması üçün gəlin əvvəlcə dinin qorunması zərurətini xülasə izah edək. Nə üçün din qorunmalıdır? Bunun bəşəriyyətə nə kimi faydası var? Onun qorunması üçün niyə canımızdan belə keçməliyik? Məgər dinin yaşaması insanın sağlamlığından daha əhəmiyyətlidirmi?

Bütün bu sualların cavabını bilmək üçün cəmi bir məsələyə diqqət yönəltmək lazımdır. Bu da yaradılışın hədəfidir ki, istənilən vaxt ilk olaraq bu nöqtədən hərəkətə başlamalıyıq. Əgər yaradılışın hədəfləri bizim üçün aydınlaşmasa, kiminsə dini ideologiyanı başa düşməsi inanılmazdır. Məsələn, mən namaz qılıram, oruc tuturam, zəkat verirəm və sair. Nə üçün? Əgər loru dildə cavablandırsaq, nəticə budur ki, "savabdır". Vəssəlam. Amma savabın yeməli və ya içməli olduğu əməl sahibi üçün qaranlıq qalır.

**Nədir yaradılışın hədəfi?** Cavab: "insanların öz dəyərlərinə söykənərək, ilahiyə iman gətirməsi vasitəsi ilə onun şəriətinə əməl etməklə mənəvi təkamülə yüksəlmək". Deməli, bəşəriyyətin dünya və axirət (cismani və ruhani) nicatı burdan keçir. Əgər bundan savayı olarsa, məncə hazırki dünyamıza nəzər salmaq cavab üçün kifayət edər. Deməli din, bəşəriyyətin nicat yoludur. O, insana xidmət edir. Hətta insanın canı təhlükəyə düşərsə, öz qadağalarını geri çəkir və bir daha insanın yaşaması üçün şərait yaradır ( məsələn:zərurət halında acından ölməmək üçün din tərəfindən qadağan edilmiş donuz ətinin az miqdarda yeyilməsi kimi). Bəs nə üçün din təhlükədə olarkən canımız bahasına da olsa dini qurtarmalıyıq? Əgər yuxarıdakı mətləbə diqqət yetirsək görərik ki, din bir nəfərin canının nicatı üçün öz qadağasını götürür. Burada yalnız bir fərdin həyatı



müzakirə obyektidir. Amma din təhlükəyə düşərsə bəşəriyyətin dünya və axirət həyatı artıq təhlükəyə düşmüş olur. Budur ki, hər bir insanın fərd olaraq və ya ictimai kütlə olaraq dini müdafiə etməsi, onun ayələrini qoruması zəruridir. Hər bir aqil insan bu yolda bütün varlığından keçməyə hazır olmalıdır. Necə ki, imam Hüseyn(ə) bu yolda məkanından, məqamından, ailəsindən, hətta altı aylıq südəmər Əli Əsgərindən, yaxınlarından, qohumlarından, dostlarından, daha vacib



olan qeyrətinin əsir olmasından keçdi. Aşuranın bizə qiyamətə kimi olan həyati mesajlarından biri də imam Hüseyn(ə) üçün yas saxlayıb, qara geyinmək yox, məhz dinin sonda canın bahasına qorunması və gələcək nəsilə təhvil verilməsidir. Allahın salamı və bərəkəti olsun bu yolda canından, ailəsindən, məkanından, məqamından həm tarix boyunca, həm də bu gün keçən bütün möminlərə.

### *Üçüncü hissə*
### Məzlumu müdafiə etmək

Bundan öncəki yazıda İmam Hüseynin(ə) məhz bəşəriyyətin səadətinin, nicatının, əbədi xoşbəxtçiliyin təminatçısı və təzminatçısı olan müqəddəs İslam dini uğrunda şəhid olduğu barədə yazmışdıq. Düzdür ki, İmam və onun ailəsi bu unudulmaz səhnədə heç kəsə yalvarmamış, əksinə istər döyüş səhnəsində, istər əsirlər karvanında və istərsə də Yezidin saraylarında heç bir məzlumiyyət nümayiş etdirməmişlər. Əksinə Yezid öz cinayətinə haqq qazandırmaq üçün bir növ cəbr əqidəsini irəli sürmüş və peyğəmbər ailəsinin buna la-yiq olmaqlarını irəli sürməklə yanaşı, həmdə bu cinayətin Allah tərəfindən olduğunu bəyan edərək üzünü xanım Zeynəbə(s) tutaraq demişdi: "gördünüzmü Allah sizin başınıza nə bəla gətirdi?"

Xanım Zeynəb(s) isə "ma rə-əytu illa cəmilən"(gözəllikdən savayı bir şey görmədim) deyə cavab verməklə Yezidin mənfur niyyətini ifşa etmişdi. Amma Kərbəla qəhrəmanlarının bu şəhamətlərinə baxmayaraq, başda imam olmaqla Kərbəlada olan peyğəmbər ailəsinə, imamın səhabələrinə, uşaqlara və qadınlara olmazın zülmü olunmuşdur. Hətta döyüş bitməmiş, nəinki islam döyüş qaydalarına əsasən, hətta ərəb döyüş qanunlarını da pozaraq ailələrə hücum olunmuş və peyğəmbərin gəlinləri, nəvə-nəticələri qarət olunmuşdur. Bundan əlavə döyüş bitdikdən sonra döyüşçülərin paltarını qarət etmişlər və cənazələrin üstündə atlar çapmışlar. Bu acı səhnəni yaralı halda müşahidə edən İmam Hüseynin(ə) "dininiz yoxdur, heç olmasa kişiliyiniz olsun" dediyi sözlər islam tarixinin qanlı səhifələrində Yezidin necə namərd olduğunu bir daha sübut edir. Bütün bu acı səhnələri xatırlatmaqda məqsədim bir daha Yezidin cinayətini Quran baxımından bir ayə ilə(əlbəttə bu barədə Qurani-Kərimdə ayələr bəs qədərdir) əsaslandırmaqdır.

Allah Təala mübarək Qurani-Kərimin Təkvir surəsində müşrük ərəblərin qız övladlarını diri-diri basdırmalarına etiraz olaraq buyurur: "Axı o hansı günaha görə öldürüldü?"

Quran mütəxəssisləri bu ayənin izahında yazırlar ki,"onların Allahın yaratdıqlarını öldürməklə törətdikləri cinayət o qədər çirkindir ki, Allah-təala qiyamət günündə belə onları öz müxatəbi qərar verməyəcək və sualı öldürülən müşrük qızlarından soruşacaq ki, "siz hansı günaha görə öldürüldünüz?"

Diqqət etsək görərik ki, Allah nəinki bir müsəlmanı günahsız öldürülməsini, hətta müşrükün belə günahsız öldürülməsini və zülmə məruz qoyulmasını qadağan edərək, bunu çirkin əməl hesab edir. Sizcə bu gün Yezidin bu əməlinə haqq qazandırmaq istəyənlər Allahın ayələrinə qarşı çıxmırlarmı? Peyğəmbər ailəsinin matəminə görə bizə irad tutanlar yezidin bu cinayətinə nə haqq qazandırırlar görəsən? Ömründə bir dəfə də olsa peyğəmbəri görən insanı səhabə sayaraq onu müqəddəs bilənlər, görəsən vəhyin ağuşunda boya-başa çatan Həsəneynin(ə) qatillərinə hansı haqq donu geyindirmək istəyirlər? İmam Hüseynin(ə) "islam xəlifəsi"nə qarşı çıxdığına görə şəhid olunmasını iddia edərək bu cinayəti örtmək üçün Cəməl döyüşündə İslam xəlifəsi İmam Əliyə(ə) qarşı çıxan peyğəmbər xanımına nə ad verirlər? Görəsən anaları Aişəni də sadə ölümə deyil, vəhşiliklə qətlə yetirilməsinə razıdırlarmı? Var dövlətini qənimət

götürmək istəyərlərmi? Tarixin bu paradokslarına göz yumanı Məada iman gətirmiş hesab etmək olarmı? Ümumiyyətlə hər hansı bir insan zülmə göz yumaraq onu bilərəkdən inkar edərsə ona aqil və ya zəka sahibi demək rəvadırmı?

Həzrət Əli (ə) buyurub: Nə çox ağıl sahibləri var ki, əmr edən nəfsin əsiridirlər.

***Dördüncü hissə***
**Şəhadət ruhunun aşılanması**

"Allah yolunda öldürülənlərə ölü deməyin. Əksinə onlar diridirlər. Lakin siz bunu dərk etmirsiz".(Qurani Kərim, Bəqərə surəsi, ayə-154)

İmam Hüseynin(ə) Aşura məktəbinin bəşəriyyətə olan töhfələrindən biri də cəsarətlə yaşayaraq, ölməklə əbədi azadlıq qazanmaqla yaşamaq məfkurəsidir. İllərcə bu məfkurə heç bir sərhəd tanımayan, irqindən və dinindən asılı olmayaraq azadlıqsevərlərin həyat tərzinə çevrilmişdir. Öz dininin həqiqət susuzluğundan qurumaqda olan kökünü öz qanı ilə suvaran kəs, reallıqda qanı ilə tarix yazan dahidir. Bu dahilərə Allah təala ölü deməyə icazə vermir. Əksinə onların diri olduğunu və ilahi dərgahında ruzi yediklərini bizə öz müqəddəs kitabında xatırladır. Tarix boyunca İmam Hüseynin(ə) qiyamından nəinki müsəlmanlar, hətta qeyri müsəlman azadlıqsevər insanlar nəşət almışlar. O cümlədən Hind Milli Azadlıq Hərəkatının rəhbəri Mahatma Qandi (1919-1948 Hind inqilabının ən qızğın vaxtları) öz xatirələrində İngilislərə qarşı mübarizə xəttində imam Hüseynə(ə) borclu olduğunu yazır. Öz mübarizə xəttində İmam Hüseynlə tanış olan istənilən sərkərdə və ya əsgər, son həddə azadlığını qanla ala biləcəyini anlayır. Əgər günümüzdən bu mövzuya misal gətirsək ən böyük parlaq nümunəmiz 23 yaşlı ideoloq, sosioloq, fəlsəfəçi, milli qəhrəmanımız şəhid Mübarizdir. Yuxarıda qeyd etdiyim sahələrin mütəxəssisləri əgər 23 yaşlı bir gəncin özündən sonra qoyub getdiyi məktubu diqqətlə nəzərdən keçirsə, görər ki, onların bir ömür insanlara aşıladıqları həyat tərzini 15 yaşlı Kərbəla qəhrəmanı Qasimdən öyrənən gənc bir qəhrəman öz məktubunda yazıb: "Canım anam və atam, məndən ötrü darıxmayın.Cənnətdə görüşəcəyik. Vətənin dar günündə ürəyim dözmür. Seyid nəvəsi olaraq bunu etməliyəm. İnşallah şəhid olana kimi bu şərəfsizlərin üzərinə gedəcəyəm. Məndən ötrü ağlamayın. Əksinə sevinin ki, bu mərtəbəyə yüksəldim".

23 yaşlı bir gənc qəhrəman, düşmən üzərinə gedərkən özündən deyil, bir ömür onun zəhmətini çəkmiş, qucağında mışıl-mışıl yatmış valideynlərinin qayğısına qalır. Və onları darıxmamağa dəvət edir. Qəhrəmanı öz ölümü deyil, valideyninin ondan sonra Mübarizsiz həyatı narahat edir. Çünki o ölmədiyini, Allahın ona Quranda verdiyi vədəni tam dərk etmişdi(şəhidlərə ölü deməyin). Çünki valideynlərinə tam əminliklə cənnəti görüş yeri təyin etmişdi. Məadı(ölümdən sonrakı həyatı) tam əminliklə görür, tanıyır və oranı görüş yeri təyin edir. İnsan necə tanımadığı yeri görüş yeri təyin edə bilər?. Hüseyn(ə) nəvəsi olaraq vətənini qurtarmağa gedir. Bu yolda ağlamağı qadağan edir və hamını bu azadlığa sevinməyə dəvət edir. Budur həqiqi aşura təfəkkürü və din anlayışı. Aşura günündə İmam Həsənin(ə) on beş yaşlı Qasim adlı övladı İmam Hüseyndən döyüş icazəsi istəyəndə imam ona deyir: " ölümdən qorxmursan?" Qasim isə cavabında: " o ölüm ki, məni babam peyğəmbərə və atam Həsənə qovuşduracaq, o ölüm ki, ilahi vədəyə vasitə olacaq, vallah baldan belə şirindir".

Bəli. Vətən anadır. Vətən dindir. Vətəni sevmək imandandır. Onun layiqincə qorunması isə aşura məktəbindən keçir. Gəlin aşuranı istədiyimiz kimi deyil, aşuranın bizdən istədiyi kimi təqdim edək. Allah bizə aşuranı dərk edərək vətənimizi və dinimizi azad etmək səadətini nəsib etsin. Allahın salamı və rəhməti olsun vətən uğrunda canından keçənlərə və bu yolda məzlumcasına şəhadətə yetirilən hər bir kəsə.

**Emil Rahiloğlu**



# İNSAN MEMARI

***Əziz oxucum, övlad yetişdirməyin, ona düzgün tərbiyə verməyin nə qədər çətin və məsuliyyətli bir iş olduğunu bilirsən əlbət. Xüsusən də indiki dövrdə övladı düzgün yetişdirib cəmiyyətə sözün əsl mənasında sağlam, yetgin, şəxsiyyətli bir fərd təqdim etmək əsl möcüzəyə bərabər bir işdir. Şişirtmirəm, xeyr, düşünürəm ki, övlad sanki ruhdan sonra insana verilən ikinci ilahi əmanətdir, onun saflığını, sağlamlığını qorumaq, o əmanəti cəmiyyətə layiqli şəkildə töhfə etmək çox ali bir borcdur!***



Təlim-tərbiyə məsələsi çox incə, həssas məsələdir. Bir də görürsünüz ki, adam müəllimdir, səhər-axşam təlim-tərbiyə işləri ilə məşğul olur, di gəl ki övladı tərbiyəsizin yekəsidir; yaxud adam axunddur, gecə-gündüz insanları haqq yoluna dəvət edir, di gəl ki öz oğlu avaranın öndə gedənidir... Bəs gündəlik həyatda tez-tez üzləşdiyimiz bu təzadın qaynağı və ya qaynaqları nədən ibarətdir? Bir qədər araşdırsaq, ortada əsaslı səbəblərin olduğu aydın olar.

Siz dahilərin, böyük insanların həyatına nəzər salın, bəzi hallarda hətta insanın məqamını onun tərbiyə etdiyi, cəmiyyətə, bəşəriyyətə təqdim etdiyi insanların sayı, keyfiyyəti ilə ölçmək olar; belə ki, bir insan yaxşı insandır, olsun, bu öz yerində, amma baxaq görək o, ətrafındakı insanları - ailəsini, doğmalarını, dostlarını necə yetişdirib, necə formalaşdırıb, düzgün tərbiyə edə bilibmi?! Əslində, budur insanın ən ali uğuru, budur onun ən qürurverici zəfəri - bu olmalıdır!

Məsələn, yazırlar ki, peyğəmbərimiz həzrət Məhəmməd (s) peyğəmbərliyə çatmazdan əvvəl qırx gün qırx gecə Həra dağında qalıb ibadət və razu-niyazla məşğul olur. Nə az, nə çox, düz qırx gün! Bu qırx gündə ona lazım olan azuqəni kim çatdırırdı? Axı o, qırx gün boyunca nə iləsə qidalanmalıydı. Bəs kim idi ona xidmət edən Allah bəndəsi?! Tarix şəhadət edir ki, o kəs həzrətin həyat yoldaşı Xədicə xanım olub. Təsəvvür edirsiniz? Heç bir etiraz, af-uf etmədən qırx gün boyunca çox çətin bir zəhmətə qatlaşmaq və bunu sevə-sevə etmək. Necə də təqdirəlayiqdir! Bu idi peyğəmbərin (s) 25 yaşında başlayan və 15 il davam edən evlilik həyatı ərzində öz sevgisi, insaniyyəti və şəxsiyyəti ilə yaratdığı Xədicə möcüzəsi! Məsələ burasındadır ki, peyğəmbər (s) o dağa ticarət səfərinə deyil, ibadət səfərinə getmişdi, dönüşdə heç bir maddi qazanc, hədiyyə-filan olmayacaq, buna rəğmən ortada təmənnasız bir xidmət var. Bəli, bu bir möcüzədir! Bu, əsl möcüzədir! Bu, insan memarlığıdır!

Biz yalnız peyğəmbərin (s) belə sosial-ictimai yönlü möcüzələrini qabardaraq onu sevdirə biləcəyik. Biz o həzrətin İlahi möcüzələrinin (hörümçək toru, şəqqül-qəmər və s.) kənarında bu tip möcüzələrini də işıqlandırmalıyıq. Çünki bunu insanlar duya bilirlər, bu dəyər onlara daha yaxındır, doğmadır. Axı peyğəmbərin (s) ilahi möcüzələrindən əlavə belə möcüzələri də var: məsələn, Əli (ə) möcüzəsi! Əli (ə) də peyğəmbərin əsəridir, onun tərbiyəsini alıb, onun himayəsində böyüyüb, Əlini (ə) Əli edən həzrət Peyğəmbərimizdir (s)! Əlinin (ə) memarı həzrət Məhəmməddir (s)!

Ümumiyyətlə, məncə gəlin bu "tərbiyə" ifadəsini dəyişək, alilə-şdirək; "tərbiyə" söz olaraq çox sadə və primitiv səslənir nədənsə, mən tərbiyəni "insan memarlığı" adlandırardım. Həqiqətən, gəlin onu dəyişib "insan memarlığı" adlandıraq. Ki, tərbiyənin əhəmiyyətini açsın bu söz. Deyək ki, tərbiyə adi iş deyil, insan memarlığıdır!

Hamımız həzrət Hüseyndən (ə), onun ali şəxsiyyətindən danışırıq, çox gözəl, amma unutmaq lazım deyil ki, o, həzrət də İmam Əlinin (ə) möcüzəsidir, Hüseynin (ə) memarı Əlidir! (ə) Zeynəbin (s) memarı Əlidir (ə)! Aşuradakı şücaətin, rəşadətin, haqqın və ədalətin təməli Əlinin (ə)

evində, onun kiçik daxmasında qoyulub. Həzrət ailənin təməlini elə sağlam, elə möhkəm qurub ki, qızı Zeynəb (s) hələ Aşuradan xeyli qabaq nikah şərtlərindən biri olaraq qeyd edir ki, istədiyi zaman qardaşı Hüseyni (ə) ziyarət edə bilmək hüququ olsun, buna heç bir siyasi və s. səbəblər mane ola bilməsin. Ən xoşbəxt günündədir xanım, amma qardaşını, onun daşıdığı missiyanı düşünür, bilir ki, qardaşının vəziyyəti qarmaqarışıqdır, başı dərddədir, öz məsuliyyətini hiss edir, nikah şərtləri arasına belə bir bənd əlavə etdirir.

Amma Tolstoyun "Dirilmə" romanındakı baş qəhrəman Noxlyudovun bacısıyla olan kiçik bir dialoquna baxaq. İlk dəfə oxuyanda bu dialoq məni elə sarsıtmışdı ki... Noxlyudov platonik və müqəddəs bir sevda dalıyca düşüb, özünü Katyuşaya qurban etmişdi, sonda həyatdan əlini üzmüş halda bacısına: "Mənə heç nə lazım deyil, bütün əmlakım sənin uşaqlarının olacaqdır!" - dediyi zaman bacısı Natalya İvanovna simasına kədərli bir görkəm verib: "Dimitri, xahiş edirəm, bəsdir!" - desə də, Noxlyudov bacısının gözlərindəki iyrənc sevinc parıltısını aydın sezirdi. Qardaşının aqibəti, hara gedəcəyi, nə edəcəyi bacının vecinə də deyildi. Önəmli olan o idi ki, miras bacısının uşaqlarına çatacaqdı.

Ayəyə baxaq:

"O, (İsmayıl) yüyürüb qaçmaq çağına çatdıqda (İbrahim) dedi: "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör (bu barədə) nə fikirləşirsən!" O dedi: "Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah, məni səbrlilərdən görəcəksən!" "(Saffat, 102)

Bu ayədə həzrət İbrahimin necə insan memarı olmasından söz açılır. Oğlu İsmayılı elə yetişdirib ki, belə həssas bir məqamda: "atacan, sənə əmr olunanı et" - deyir; ölümlə üz-üzədir, amma üsyan etmir, atasının hörmətini qoruyur, razılaşır onunla. Üstəlik, baxın, necə də nəzakətlə danışır atasıyla. Belə övlad yetişdirmək asan işdirmi sizcə? Bunu sadəcə tərbiyə adlandırmaq olarmı? Xeyr, bu əsl insan memarlığıdır!

Lev Tolstoyun müəllifi olduğu başqa bir əsəri, "İvan İliçin ölümü"ndə İvan İliçi narahat edən məsələ nə idi, bilirsiniz? İvan İliç yaxşı ailə yetişdirməmişdi, təməli çürük idi ailəsinin. O, ağır xəstəliyə tutulmuşdu, ölüm ayağında idi, ailəsininsə vecinə belə deyildi, atanın xəstəliyinə görə gedişat (!) pozulmamışdı, proqramlar dəyişməmişdi, necə deyərlər, həyat öz axarıyla davam edirdi. İvan İliçi ən çox narahat edən məsələ də bu idi; o, sağlam, mənəvi dəyərlər əsasında idarə olunan ailə yetişdirə bilməmişdi; ailəsi, dostları, iş yoldaşları – hər kəs ondan sonranı, irsi-mirası və s. məsələləri düşünürdü. Oğul bir dəfə də olsun atasının qarşısına keçib: "Ata, kaş sənin xəstəliyini canıma çəkə biləydim" - deyib ağlamırdı, ümumiyyətlə, onun ailəsi belə şeyləri düşünəcək dünyabaxışına sahib deyildi.



- Bizim günahımız nədir, elə bil biz salmışıq papanı bu günə! - Bu, İvan İliçin minbir zəhmətlə böyütdüyü qızı Lizanın xəstə atasının kaprizlərindən anasına etdiyi gileyidir. Nə qədər üzücü giley, necə də insafsız şikayətdir! Qızın ata vecinə deyil, o ərə getmək xülyalarındadır! Demək, İvan İliç ona verilən bu müvəqqəti həyatda insan memarı ola bilməmişdi, bəli, bəli, onun əsl dərdi də bu idi.

"Aşura ziyarətnaməsi"ni oxumuş olsanız, ən ali salamlaşması belədir:

Salam olsun Hüseynə (ə),
Salam olsun Hüseyn oğlu Əliyə (ə),
Salam olsun Hüseynin (ə) övladlarına,
Salam olsun Hüseynin (ə) dostlarına...!

Bəli, belə övladlar, belə səhabə və dostlar ən ali salamı haqq edir! Gəlin Aşuraya bir də bu yöndən baxaq; gəlin imamı bir də bu baxış bucağdan tanıyaq; Aşurada Hüseyn (ə) 72 misilsiz insanın memarıdır. Peyğəmbərin (s) səhabələri arasında belə ona xəyanət edənləri vardı, Əlinin (ə) də, imam Həsənin (ə) də... Amma Aşura karvanında Hüseynə (ə) xəyanət edən olmadı, əsla olmadı. Aşurada Hüseynin (ə) ən böyük möcüzəsi bu idi, təsəvvür edin, bütün əziyyətlərə, susuzluğa və s. rəğmən heç kim dönmədi Hüseyndən (ə)! Bu idi imamın möcüzəsi.

Sonda gəlin birlikdə biz də ətrafımıza baxaq, biz necə, belə ailə, övladlar, dostlar, silahdaşlar yetişdirə bilmişikmi, biz necə, insan memarı ola bilmişikmi?!

Bilməmişiksə...

Mənə görə dünyada qazanıla biləcək ən ali titul "insan memarı" tituludur!

**İlqar Kamil**

# İMAM HÜSEYN (Ə) HİDAYƏT ÇIRAĞI VƏ NİCAT GƏMİSİDİR




***Hədis qaynaqlarında deyilir: "Ərşin sağ tərəfində yazılmışdır ki, Hüseyn (ə) hidayət çırağı və nicat gəmisidir (Əmin əl-İslam Fəzl ibn Həsən Təbərsi, "Elam əl-vəry", səh. 400).***

*Buna əsasən soruşula bilər ki, nə üçün imamlar (ə) arasında bu ləqəb yalnız İmam Hüseynə (ə) verilmişdir? Cavab olaraq demək lazımdır ki, əgər imamlar (ə) vahid nurdurlarsa, hamısı hidayət çırağı hesab olunurlar. Amma zaman şəraiti bais olur ki, onların şəxsiyyətinin müəyyən yönləri daha çox qabarsın və üzə çıxsın. Nəticədə Allahın adlarından birinin təzahürü olsun.*

*İki misala nəzərən yuxarıdakı mətləbləri izah etmək olar:*

***Birinci misal:***

İmamlardan yalnız beşinci imam (ə) "Baqir", yəni "elmləri açan" ləqəbini almışdır. Baxmayaraq ki, bütün məsum imamlar ilahi biliyə malik idilər və bu, yalnız beşinci imamın (ə) yaşadığı dövrün şəraitinin ortaya çıxartdığı xüsusiyyət idi. Digər tərəfdən o dövrdə yeni sektalar, fikirlər ortaya çıxmışdı. Başqa bir tərəfdən Bəni-Üməyyə hakimiyyəti zəifləmişdi. Bu zaman əlverişli şərait yaranmışdı və şiəliyin əsaslarını izah etmək zəruri idi. Bunu görən imam (ə) tədris sahəsində fəaliyyətə başladı və bu, İmam Sadiq (ə) dönəmində daha da genişləndirildi. Əhli-beyt (ə) məktəbi daha dəqiq izah edildi, çoxlu sayda şagirdlər yetişdirildi və təbliğ üçün İslam dünyasının ən ucqar yerlərinə göndərildi. Beşinci imamın (ə) bu rolu ona "Baqir əl-ülum", yəni elmləri açan ləqəbinin verilməsinə gətirib çıxartdı. Amma bu heç də o demək deyil ki, digər imamlar alim olmayıblar. Əksinə, bu ləqəb yalnız beşinci imamın (ə) Əhli-beyt (ə) məktəbinin ana xəttini cızmaqdakı rolunu ifadə edir.

***İkinci misal:***

İmamlardan yalnız İmam Əli (ə) və İmam Hüseyn (ə) "Sarullah" (Allahın qanı və ya qan sahibi Allah olan şəxs deməkdir) ləqəbini almışlar. Baxmayaraq ki, onların heç biri dünyadan təbii ölümlə getməmişlər və Allah yolunda şəhid olmaq onlara nəsib olmuşdur. Buna səbəb odur ki, imamlardan yalnız bu ikisinin qanı yerə axmış və o şəraitdə, o şəkildə şəhid olmaqla İslama can verməkdə xüsusi rol oynamışlar. Bu, heç də o demək deyil ki, yad edilən xüsusiyyət digər imamlarda olmamışdır. Başqa sözlə, baxmayaraq ki, bütün imamlar ilahi ad və sifətlərin kamil təzahürləridirlər. Amma xüsusi şərait və zaman kəsiyi onların şəxsiyyətlərinin müəyyən yönlərinin təcəlla etməsinə, onların Allahın adlarından yalnız birinin təzahürü olmasına səbəb olurdu. Amma nə üçün hidayət çırağı və nicat gəmisi ifadəsi yalnız İmam Hüseyn (ə) haqqında təkidlə işlədilir? Baxmayaraq ki, "Səfinə" hədisinə görə, bü-

tün Əhli-beyt (ə) nicat gəmisidir. Misal üçün, "Mənim Əhli-beytim (ə) sizin aranızda Nuhun (ə) gəmisi kimidir" hədisi bu qəbildəndir. Cavab olaraq deməliyik ki, İmam Hüseynin (ə) şəraiti və mövqeyi xüsusi şərait idi. O şəraitdə Bəni-Üməyyə zəhərli təbliğatı ilə İslamın simasını dəyişmişdi. Aydındır ki, belə bir islam insanları hidayət edə bilməzdi. Xəlifəsinin əyyaş və qumarbaz bir insan olmasına göz yuman islam, etnik ayrı-seçkilik salan, təbəqə ayrı-seçkiliyi salan islam, başında dayananlar məst ikən camaat namazına gələn islam əsla hidayətçi ola bilməzdi.

İmam Hüseyn (ə) öz qiyamının məqsədini açıqlayarkən buyurur: "Mən nə rifah, nə də hakimiyyət, nə fəsad, nə də zülm üçün ayağa qalxmamışam. Əksinə, babamın ümmətini islah etmək üçün qalxmışam" (Baqir Şərif Qurəşi, "Həyati-İmam Hüseyn ibn Əli (ə), c. 2, səh. 264. İmam (ə) digər bir cümləsində buyurur: "İlahi, mən yaxşılığı sevir, pisliyi inkar edirəm", "Bihar əl-ənvar", c. 43, səh. 328).

O həzrət (ə) öz zəmanəsinin ictimai vəziyyətini təsvir etdikdən sonra buyurur: "Görmürsünüzmü ki, haqq-ədalət icra olunmur və xalq batildən əl çəkmir?" Belə aludə bir mühitdə hər bir imanlı insan ölüm və Allahla görüş arzulayır ("Əyan əş-şiə", c. 4, səh. 234-235).

Yaxud, Yezidin hakimiyyətə gəlməsindən xəbərdar olduqda buyurdu: "İnsanlar və cəmiyyət Yezid kimi bir hakimə düçar olduqda İslam və müsəlmanların "Fatihə"sini oxumaq, onlarla xudahafizləşmək lazımdır" ("İbn Tavus, "Lühuf", səh. 11).

İmam (ə) belə bir şəraitdə həm islamı məhv olmaqdan xilas edə bildi, həm də həqiqi islamın bütün yönlərini əməldə bəşəriyyət üçün nümayiş etdirdi. Əslində insanlar üçün hidayət və nicat yolunu təcəssüm etdirdi.

Bu baxımdan Kərbəla hadisəsi və xüsusilə Aşura günü bütün fəzilət və yaxşılıqların İmam Hüseyn (ə) və silahdaşlarının müqəddəs vücudunda zühur etdiyi gündür. Bunu iddia edə bilərik ki, İslamın bütün yönləri onlar tərəfindən qan rəngilə Kərbəla torpağında tarixin əbədi tablosuna həkk edilmişdir. Bir halda ki, digər imamlar (ə) üçün belə bir şərait yaranmamışdı ki, bütün fəzilətlərini, xüsusiyyətlərini həqiqət sorağında olanların gözü önündə sərgiləsinlər. İslamın bütün hidayət imkanlarını nümayiş etdirsinlər. Əlbət ki, bu onların üzərinə düşən vəzifənin tələbi idi. Hər bir xüsusi şərait xüsusi davranış tələb edirdi. Onlar vəzifəli idilər ki, bəşəriyyətə həmin şəraitə uyğun davranış örnəyi təqdim etsinlər. Yəni, bu məhdudiyyət şəraitin ortaya çıxardığı məhdud davranış örnəyindən doğurdu. Buna görə də Aşura hadisəsinin və İmam Hüseynin (ə) özünün əks etdirdiyi mükəmməllik, əhatəlilik bais oldu ki, o, çırağa çevrilsin və bu çırağa baxan heç kim yolunu azmasın. Tufanlı dənizdə qərq olmasın. Başqa sözlə, İmam Hüseyn (ə) o adamlar üçün hidayət çırağıdır ki, cəhalət zülmətində məhv olurlar. O adamlar üçün nicat gəmisidir ki, dünya bataqlığında çabalayırlar. Buna görə də İmam Hüseynin (ə) 40-cı gününün ziyarətnaməsində oxuyuruq: "Pak qanını Sənin üçün axıtdı ki, bəndələrini cəhalət və sərgərdanlıqdan xilas etsin. Bir halda ki, dünyapərəstlər (dünyanın aldatdığı insanlar) onun əleyhinə birləşmişdilər"

("Bihar əl-ənvar", c. 98, səh. 331).



# ƏZADARLIQ VƏ CƏMİYYƏT

Aşura dəyərlərlə dolu bir məktəbdir. Bu məktəbin aliliyi, əbədiliyi və müqəddəsliyi bütün azadlıqsevərlərə məlumdur. Elə buna görədir ki, Əhlibeyt (ə) davamçıları bu dəyərlər toplusunu əzadarlıq mərasimləri şəkilində indiyə qədər qoruyub saxlamışlar. Aşura dəyərləri kimi Kərbəla vaqeəsi ilə əlaqədar keçirilən əza məclislərinin də özünə xas keyfiyyətləri və üstünlükləri vardır. Elə bir üstünlüklər ki, onların hər biri təkliyində böyük əhəmiyyətə malikdir.




**Vəhdət.** Əza məclislərinin müsbət keyfiyyətlərindən biri də ictimai olmasıdır. Bildiyimiz kimi, əzadarlıq məclisləri yüzlərlə insanın iştirakı ilə məscid və təkiyələrdə keçirilir. Yəni böyük bir toplum eyni hədəfə-İmam Hüseynə görə bir araya gəlirlər. Eyni hədəfə malik olmaq və bu hədəfə görə birgə olamaq özlüyündə çox müqəddəsdir. İslam dinində camaat namazı və Həcc əməllərinə verilən böyük dəyər bu ibadətlərin daha çox ictimailiyi ilə əlaqədardır. Əza məclislərində İmam Hüseynin və İslam dininin maariflərini dinləyən, çiyin-çiyinə dayanıb ağalarının məzlumiyyətinə sinə döyüb, ağlayan şəxslər, əgər zərrə qədər səmimi olsalar, ətraflarında heç kəsin məzlum olmasına, hüquqlarının tapdalanmasına razı olmazlar.

**MAARİFÇİLİK.** Əzadarlıq mərasimlərinin ayinlərindən biri də məclis iştirakçıları üçün dini moizə və xütbələrin oxunulmasıdır. Dini söh-bətlərin insanların rühiyyəsində, maariflənməsində böyük rolu vardır. Hətta İslam peyğəmbəri (s) Cəbrailin ona moizə etməsini xəbər vermişdir. İnsan ətrafında baş verən bəzi hadisələr nəticəsində bəzən qəflətə dalır. Özünün müqəddəs hədəfini, amalını unudur. Və ya hansısa missiyaların təsiri altında bəzi etiqadi məsələlərdə tərəddüd edir. Belə bir şəxs xətib və vaizin elmi çıxışları əsasında qəflətdən oyanır, kimliyini yenidən dərk etməyə başlayır. Zehində yaranmış şübhələrinə cavab tapır.

**Tərbiyə.** Uşaqlarımızın düzgün tərbiyəsi, gənclərimizin doğru yola istiqamətləndirilməsi valideyn və pedoqoların ən ümdə vəzifələrindən sayılır. İmam Hüseynin (ə) əza məclislərində yaşlılarla yanaşı uşaq və gənclərin də iştirak etməsi onların əsil İslam maarifi ilə tərbiyə olunmasına zəmin yaradır. Düzgün tərbiyə olunmaq üçün ideal örnəyə ehtiyac zəruridir. Aşura məktəbinin yaradıcılarının hər biri cəmiyyətin hər bir sinfi üçün ən gözəl meyar sayılır. Qasım ibn Həsən, Əli Əsğər, Əli Əkbər, Abbas ibn Əli, İmam Hüseyn, Zeynəlbdən ideal örnək kim ola bilər?

**ŞÜCAƏT.** Əzadarlıq məclislərinin gənclərimizə ərməğan etdiyi dəyərlərdən biri də mübarizlik, qorxmazlıqdır. Aşura günündə haqq yolunda hər bir şeylərindən keçən şəxsləri özünə edeal seçən gənc qorxmazlığı, mübarizliyi, vətənsevərliyinə görə bənzərsizdir. Bu rühiyyədə boya-başa çatan şəxsi heç kəs sarsıda, elinə, dininə kəc baxa bilməz.

**HƏYAT TƏRZİ.** Bildiyimiz kimi döv-rümüzdə mədəniyyət savaşı ən ciddi təhlükələrdən biri hesab edilir. Bu savaşın itkinləri dini dəyərlər, mintalitetlər, milli kimliklərdir. Mədəniyyət savaşında gənclik və onun inanc və əqidələri, forması, zahiri görünüşü əsir alınır. İmam Hüseynin (ə) əzadarlıq məclisində qara köynək geyinib zahiri görünüşü və imicinə diqqət yetirən bir gənc yabançı geyim tərzləri, saç düzümlərinin hədəflərinə tuş gəlməmək qüdrətinə malikdir. İmam Hüseyn (ə) məktəbinin davamçılarının dini və milli dəyərlərinə uyğun mədəniyyəti vardır. Onların kimliyi, onların həyat tərzi puç ideologiyalardan yox, Quranikərimdən, məsumların sünnəsindən qaynaqlanır.

**HÜNƏR.** İncəsənət bir vasitə olduğu qədər dəyərlidir. Hər bir sənət əsərinə ruh verən, onu əbədiləşdirən daşıdğı missiyalarıdır. Heç bir prinsip və əqidəyə malik olmayan əsər məhvə məhkumdur. İmam Hüseyn (ə) əzadarlığında ən dəyərli ənənələrdən biri də Kərbəla faciəsini əks etdirən şeir və mərsiyələrin oxunmasıdır. Yəni, bu mərasimlərdə sırf şəhadət ideologiyasına söykənən bədii əsərlər qiraət edilir. Bu məra-simlərdə boya-başa çatan nəsil ali və müqəddəs dəyərləri yaxşı dərk edir və bu nəsilin içindən çıxan yaradıcı şəxs qələmini yalnız haqq naminə sərf edir. Belə bir yazar bəşəriyyətə sülh, əminamanlıq, elm, əxlaq, mənəviyyat, şücaət, müvarizlik bəxş edə biləcək əsərlər təqdim edir. Allah-Taala bizi əsil Hüseyn (ə) məktəbinin davamçısı, həqiqi əzadarlardan qərar versin, inşallah.

**Niyam Aqil**

# QURAN VƏ İMAM HÜSEYN (Ə)

***Quranda İmam Hüseynin (ə) fəzilət və məqamına işarə vuran ayələr çoxdur. Burada dörd nümunəni diqqətinizə çatdırırıq:***




**1. "Məvəddət" ayəsi;**

"(Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm" ("Şura", 23).

Əhməd ibn Hənbəl ("Müsnəd" əsərində), Əbu Nəim Hafiz, Sə`ləbi, Təbərani, Hakim, Razi, Şəbravi, İbn Həcər, Zəməxşəri, İbn Münzir, İbn Əbu Hatəm, İbn Mərdəveyh, Süyuti və bir çox başqa əhli-sünnə alimi İbn Abbasdan nəql etmişlər ki, bu ayə nazil olduqda səhabələr dedilər: "Ya Peyğəmbər! Bizə sevgisi vacib olan qohumların kimlərdir?" Həzrət (s) buyurdu: "Əli, Fatimə və iki oğlu, yəni Həsən və Hüseyn" ("əl-Qədir", c. 2, səh. 307).

Maraqlıdır ki, Şafei Əhli-beyt (ə) haqqında demişdir:

"Ey Əhli-beyt! Sizə sevgi Quranda Allah tərəfindən vacib edilmişdir. Sizin əzəmət və məqamınız üçün bu kifayətdir ki, namazda sizə salavat göndərməyənin namazı batildir" ("əl-Qədir" kitabında Zərqaninin "Şərh əl-məvahib" əsərindən (c. 7, səh. 7) və digər bir çoxlarından nəql edilir ki, yuxarıdakı sözlər (beytlər) İmam Şafeiyə aiddir).

Görkəmli təfsirçi Əllamə Təbərsi görkəmli əhli-sünnə hədisşünas və təfsirçisi Hakim Həskaninin "Şəvahid ət-tənzil" kitabından nəql edir ki, Peyğəmbər (s) buyurmuşdur:

"Allah, peyğəmbərləri müxtəlif ağaclardan yaratdı. Məni və Əlini isə bir ağacdan yaratdı. Mən ağacın kökü, Əli isə budağıdır. Fatimə onun bəhər verməsinə səbəbdir. Həsən və Hüseyn onun meyvələri, şiələrimiz isə yarpaqlarıdır". ... Sonra əlavə etdi: "Kimsə Səfa və Mərvə dağları arasında min il ibadət etsə, sonra yenə ibadət etsə, sonra yenə ibadət etsə, ... amma qəlbində bizim sevgimiz olmasa, Allah onu üzü üstə oda atacaq". Sonra həzrət (ə) bu ayəni oxudu: "(Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm" ("Məcmə əl-bəyan", c. 9, səh. 43).

Həmçinin Zəməxşəri "Kəşşaf" əsərində "Əhli-beyt" (ə) sevgisi haqqında çox canlı və dolğun bir hədis nəql edir. Fəxr Razi və Qürtübi də ondan iqtibas etmişlər: "Sözügedən hədis aydın şəkildə Məhəmməd (s) ailəsinin və onlara sevginin önəmini açıqlayır". Peyğəmbər (s) buyurmuşdur: "Kim dünyadan Əhli-beyt (ə) sevgisi ilə getsə, şəhid kimi ölmüşdür. Bilin ki, kim dünyadan Əhli-beyt (ə) sevgisi ilə getsə, bağışlanmışdır. Bilin ki, kim dünyadan Əhli-beyt (ə) sevgisi ilə getsə, tövbəkar kimi getmişdir. Bilin ki, kim dünyadan Əhli-beyt (ə) sevgisi ilə getsə, kamil imanlı mömin kimi getmişdir. Bilin ki, kim dünyadan Əhli-beyt (ə) sevgisi ilə getsə, ölüm mələyi ona behişt müjdəsi verər. Sonra Münkir və Nəkir (Bərzəxdə sorğu-sual edən iki mələk) ona müjdə verərlər. Bilin ki, kim dünyadan Əhli-beyt (ə) sevgisi ilə getsə, onu gəlin bəy evinə gedər kimi hörmətlə behiştə tərəf aparırlar. Bilin ki, kim dünyadan Əhli-beyt (ə) sevgisi ilə getsə, onun qəbrində behiştə doğru iki qapı açılar. Bilin ki, kim dünyadan Əhli-beyt (ə) sevgisi ilə getsə, onun məzarı rəhmət mələklərinin ziyarətgahı olar. Bilin ki, kim dünyadan Əhli-beyt (ə) sevgisi ilə getsə, islam sünnəsində dünyadan getmişdir. Bilin ki, kim dünyadan Əhli-beytə (ə) kinlə getsə, qiyamətdə məhşərə daxil olarkən alnına yazılacaq: "Allah rəhmətindən məyus". Bilin ki, kim dünyadan Əhli-beytə (ə) kinlə getsə, dünyadan kafir getmişdir. Bilin ki, kim dünyadan Əhli-beytə (ə) kinlə getsə, behişt iyini duymayacaq" ("Kəşşaf", c. 4, səh. 220; "Təfsiri-Kəbir", c. 27, səh. 165; "Təfsiri-Qürtübi", c. 8, səh. 5843; "Təfsiri-Nümunə", c. 20, 414).

**2. "Təthir" ayəsi;**

Allah-Taala buyurur: "Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!" ("Əhzab", 33).

Ayədə sözükeçən "rics" ifadəsi napak şey deməkdir. İstər insan təbiəti baxımından napak olsun, istərsə də ağılın və ya şəriətin hökmü ilə napak olsun ("Müfrədati-Rağib", "rics" sözü).

"Rics" sözü bəzi yerlərdə gü-

nah, şirk, xəsislik, yanlış əqidə və bu kimi mənalarda işlənmişsə də əslində onun nümunələridir. Əks təqdirdə bu sözün mənası daha geniş və ümumidir. Bütün növ çirkinlikləri əhatə edir. Sübutu da budur ki, sözügedən ayədə "əlif-lam" artikli ümumilik ifadə edir.

"Təthir" isə paklamaq mənasını ifadə edir. Həqiqətdə çirkinliklərin aradan qaldırılmasına işarədir. Bunun xüsusi növ tamamlıq şəklində işlənməsi də bu məna üçün başqa bir təkid hesab olunur.

"Əhli-beyt" ibarəsi isə bütün islam alimlərinin, təfsirçilərin yekdil rəyinə görə, Peyğəmbərin (s) Əhlibeytinə (ə) işarədir. Bu, ayənin öz zahirindən də aydın olur. Çünki hərçənd, "beyt" (ev) sözü ayədə mütləq şəkildə işlənmişdir, amma öncəki və sonrakı ayələrin kontekstinə nəzərən "beyt"də məqsəd Peyğəmbərin (s) evidir. Şiə və əhli-sünnə qaynaqlarında yer alan çoxsaylı rəvayətlərdə deyilir: "Yuxarıdakı ayədə müxatəb 5 nəfərlə inhisarlanır. Onlar Peyğəmbər (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyndir (ə)".

Bütün bu aydın mətnlərə nəzərən ayənin yeganə məqbul izahı budur ("Təfsiri-Nümunə", c. 17, səh. 293).

Şiə və əhli-sünnə arasında mütəvatir hədislərə görə, "Təthir" ayəsi yaradılış aləminin ən fəzilətli beş şəxsiyyətinin Peyğəmbərin (s) əbasının altına toplaşması haqqında nazil olmuşdur. Ayə və onu izah edən hədislər həzrət İmam Hüseynin (ə) məsumiyyətinə və əzəmətinə sübutdur.

"Kəsa" (əba) hədisi haqqında çoxlu rəvayətlər nəql olunmuşdur ki, onların hamısından Peyğəmbərin (s) Əlini (ə), Fatiməni (ə), Həsəni (ə) və Hüseyni (ə) əbasının altına alıb dua etməsi aydın olur. Həzrət (s) duada buyurur: "İlahi, bunlar mənim ailəmdir. Çirkinliyi onlardan uzaq et". Və bu zaman "Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!" ayəsi nazil olur.

Görkəmli alim Hakim Həskani Nişapuri "Şəvahid ət-tənzil" əsərində bu rəvayətləri çoxsaylı vasitələrlə nəql etmişdir" ("Şəvahid ət-tənzil", c. 2, səh. 31).

Aşura hadisəsindən sonra İmam Hüseynin (ə) mübarək başına hörmətsizlik olunduqda Vasilə ibn Əsqə ayağa qalxıb dedi: "And olsun Allaha, mən Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyni (ə) həmişə sevmişəm. Çünki Peyğəmbərin (s) onlar haqqında nə buyurduğunu eşitmişəm. Bir gün Ümmü-Sələmənin evində Peyğəmbərin (s) yanında idim. Həsən (ə) oraya gəldi. Peyğəmbər (s) onu dizi üstünə aldı və öpdü. Sonra Hüseyn (ə) gəldi. Onu da dizi üstə alıb öpdü. Sonra Fatimə (ə) gəldi. Onu da öz yanında oturtdu. Sonra Əlini (ə) çağırıb dedi: "Ey əhlibeyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!" ("Səhihi-Müslim", c. 7, səh. 130)

Vahidi "Əsbab ən-nüzul" kitabında, Əhməd "Mənaqib" kitabında və Təbərani nəql etmişlər ki, "Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!" ayəsi beş nəfər haqqında nazil olmuşdur və onlar Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyndir (ə) ("Əsbab ən-nüzul", c. 1, səh. 368; "Fəraid", c. 1, səh. 24).

### 3. "Mübahilə", ayəsi;

"(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən elmdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair səninlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) dua edib yalançılara Allahın lənət etməsini diləyək!" ("Ali-İmran", 61)

Müsəlmanların yekdil rəyinə əsasən İmam Hüseynin (ə) fəzilət və yüksək məqamına işarə vuran ayələrdən biri də "Mübahilə" ayəsidir. "Mübahilə" əhvalatı Peyğəmbərin (s) öz risalətinə inamının dərinliyini göstərən hadisələrdəndir. Çünki əgər o həzrət (s) öz missiyasına tam inanmasaydı, "mübahilə" təklifi gerçək intihar və düşmən tərəfə risalətin yanlışlığını üzə çıxaracaq sənəd vemək idi. Çünki əgər xristianların Peyğəmbər (s) haqqındakı qarğışı reallaşsaydı, yaxud Peyğəmbərin (s) onlara qarğışı həyata keçməsəydi o həzrətin (s) bütün iddialarında yanlış olduğu üzə çıxacaqdı. Buna görə də heç bir ağıllı adam öz duasının tam həyata keçəcəyinə əmin olmadan belə bir təklif irəli sürməzdi. İslam peyğəmbəri (s) öz missiyasının doğruluğundan, öz duasının qəbul olunacağından, "mübahilə" olunacağı təqdirdə düşmən tərəfin məhv olacağından bu qədər əmin idi ki, şücaətlə belə bir təklif irəli sürdü.

Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyni (ə) "mübahilə"yə aparmaq Allahın əmri idi və bu da göstərir ki, "mübahilə" zamanı Peyğəmbərlə (s) yanaşı olan dörd müqəddəs nur Allah dərgahında yaradılmışların ən əzizi, ən fəzilətlisidirlər.

### 4. "Arxayın nəfs".

"Ey (öz imanından, əməlindən və Allahın vədindən) xatircəm olan kəs! (Və ya: "Ey arxayın nəfs!") Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən! (Əməlisaleh) bəndələrimin zümrəsinə daxil ol! (Onlarla birlikdə) Cənnətimə varid ol!" ("Fəcr", 27-30)

İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə deyilir: "Fəcr" surəsini hər bir vacib və müstəhəb namazda oxuyun ki, Hüseyn ibn Əlinin (ə) surəsidir. Kim onu oxusa, behiştdə Hüseyn ibn Əlinin (ə) dərəcəsində olacaq ("Məcmə əl-bəyan", c. 10, səh. 481).

Qeyd etmək lazımdır ki, bu surənin İmam Hüseyn (ə) surəsi kimi təqdim olunmasına səbəb bu ola bilər ki, İmam Hüseyn (ə) "arxayın nəfs"in bariz nümunəsidir və bu surənin son ayələrində haqqında danışılmışdır. Necə ki, bu ayələrlə bağlı hədislərdə də öz əksini tapmışdır ("əl-Bürhan fi təfsir əl-Quran", c. 5, səh. 658).

# İMAM HÜSEYN (Ə) VƏ "SARULLAH"IN MƏNASI

***Bu mövzu ilə bağlı öncə demək lazımdır ki, bu ləqəb iki məsum imama – İmam Əliyə (ə) və İmam Hüseynə (ə) verilmişdir. İmam Hüseynin (ə) ziyarətnaməsində oxuyuruq: "Əs-Səlamu ələykə ya sarəllah və ibn sarihi!" (Salam olsun sənə, ey Allahın qanı və Allah qanının oğlu!") (Məhəmməd ibn Yaqub Küleyni, "əl-Kafi", c. 4, səh. 576. Bu cümlə rəcəb və şaban aylarının, həmçinin İmam Hüseynin (ə) Ərəfə günü ziyarətnaməsində yer almışdır)***

***"Sarullah" sözünün mənası ilə bağlı iki ehtimal var:***



### *1. İntiqam;*

Lüğət kitablarında "əs-sar" qan almaq (intiqam, qisas) mənasında verilir. Buna əsasən "sarullah" Allahın intiqamını alan mənasını ifadə edir.

Bilmək lazımdır ki, Hüseynin (ə) intiqam nidası, yəni "Ya ləsarat əl-Hüseyn" şüarı təvvabin və Muxtar qiyamının şüarları olmuşdur (Məhəmməd Baqir Məclisi, "Bihar əl-ənvar", c. 45, səh. 333). Həmçinin bu, İmam Zamanın (ə) zühurunadək onun məzarı kənarında gözləyən mələklərin də şüarıdır (Şeyx Səduq, "Əmali", səh. 130; Məhəmməd Baqir Məclisi, "Bihar əl-ənvar", c. 44, səh. 286). Bundan başqa İmam Zamanın (ə) (Şeyx Abbas Qumi, "Müntəha əl-amal", c. 1, səh. 542; "Bihar əl-ənvar", c. 44, səh. 218) və şəhadətsevər tərəfdaşlarının da bu şüarla çıxış edəcəyi bildirilir ("Bihar əl-ənvar", c. 52, səh. 308).

Yuxarıda "Sarullah" sözünün mənası haqqında deyilənlər İslam alimlərinin böyük əksəriyyəti tərəfindən qəbul olunur ("Təfsiri-nümunə"də deyilir: "Ərəb dilində "sar" heç zaman qan mənasında işlənməmişdir. "Sar" qanbahası deməkdir" (Ərəb dilində qan "dəm" sözü ilə ifadə olunur) Məkarim Şirazi, "Təfsiri-Nümunə", c. 4, səh. 229). Bu mənada "sarullah" qanbahası Allaha aid olan kəsdir. Yəni, o kəs ki, onun qanını (intiqamını) Allah alacaq. Çünki sən elə bir ailəyə mənsub deyilsən ki, sənin qanını Ailə başçısı alsın. Həmçinin sən bir qəbiləyə mənsub deyilsən ki, sənin qanını qəbilə başçısı alsın. Sən insaniyyət dünyasına, varlıq aləminə mənsubsan, sən Allahın pak zatına mənsubsan, buna görə də sənin qanını o almalıdır. Həmçinin sən Allah yolu şəhidi Əli ibn Əbu Talibin (ə) övladısan, onun da intiqamı Allahın üzərinə düşür.

### *2. Allahın qanı.*

Əllamə Məclisinin sözlərindən aydın olur ki, "sar" sözü qan və qan almaq (qisas) mənalarını ifadə edir ("Bihar əl-ənvar", c. 98, səh. 151). Onun sözlərini "Lisan əl-ərəb"də "sar" sözü ilə bağlı deyilənlər də təsdiq edir. Bu lüğət kitabında deyilir: "Əs-Sar, qan (qisas) almaqdır və həmçinin "qan" mənasında da işləndiyi deyilmişdir" (İbn Mənzur, "Lisan əl-ərəb", c. 4, səh. 97). Elə isə demək olar ki, İmam Hüseyn (ə) Allahın qanıdır. Amma doğrusu bu sözü qəbul etmək olar? Allah cisimdirmi ki, Onun qanı da olsun. Prinsipcə, Allah haqqında belə bir təsəvvür doğrudurmu?

Cavab olaraq demək lazımdır ki, İslam maarifində işlənən "Allahın əli" və s. ifadələr məcazi ifadələrdir (Məkarim Şirazi, "Təfsiri-Nümunə", c. 4, səh. 229; Möhsün Qiraəti, "Təfsiri-Nur", c. 2, səh. 443). Misal üçün, Əli (ə) Allahın əlidir deyilir. Məqsəd bu deyil ki, Allah cisimdir, insan kimi əli var və bu İmam Əlidir (ə). Əksinə, məqsəd budur ki, Əli (ə) Allahın qüdrətinin təzahürüdür.

Demək, İmam Hüseynə (ə) "Sarullah" deyilməsinə haqq qazandıran aşağıdakı iki səbəbdən biri ola bilər:

1. "Sar" sözünün "Allah" sözünə nisbət verilməsi şərafət ifadə edir. Yəni, bu qan mövcudatın ən şərəflisi Allaha aiddir. Bu qan, şərafətli qandır. Çünki Allah üçün axıdılıb. Buna görə də Allaha mənsubdur. Necə ki, " Allahın bu dişi (maya) dəvəsi" ("Hud", 64) və "Sənin Beytülhəramının




(Kəbənin) yaxınlığında" ("İbrahim", 37) ayələrində dəvə və beyt sözlərinin Allaha nisbət verilməsi onların şərafətini artırmaq məqsədi daşıyır (Seyid Məhəmməd Hüseyni Şirazi, "Təqrib əl-Quran ilə əl-əzhan", c. 2, səh. 200).

2. Kamillik dərəcələrində qürb məqamına yol tapan kamil insan Allahın əli, Allahın dili, Allahın qanı olur. Yəni, bu mənada Allahın əli olur ki, Allah bir iş görmək istəsə, onun əli ilə görür. Bu mənada Allahın dili olur ki, Allah bir söz demək istəsə, onun dili ilə deyir. Bu mənada Allahın qanı olur ki, Allah istədikdə öz məktəbinə cəmiyyətdə onun qanı ilə həyat bəxş edir. İmam Əli (ə) və İmam Hüseyn (ə) "Allahın qanı"dırlar. Çünki onlardan axan qan dinə yeni həyat üfürülməsinə səbəb oldu.

Hər halda dini mətnlərimizdə "Sarullah" (Allahın qanı) ləqəbi İmam Hüseyn (ə) haqqında işlənmişdir. Biz inanırıq ki, birinci məna hərçənd düzgün mənadır, amma ikinci məna da "Sarullah" ləqəbi haqqında doğrudur və bu mənanın dərinliyinə gedənlər üçün prioritet versiyadır.

Bu baxımdan o həzrət (ə) o cəhətdən Allahın qanıdır ki, din cüssəsinə yeni həyat bəxş etmiş və Allahın yavaş-yavaş unudulduğu, ibadətinin vərdişə çevrildiyi bir zamanda bais olmuşdur ki, Allahın adı canlansız, yaşasın.

Bu baxımdan deyilir ki, İslam dini Peyğəmbərlə (s) gəlmiş və İmam Hüseynlə (ə) yaşamışdır. Məlumdur ki, diri insanın yaşaması üçün damarında qanın axmasına ehtiyac var. Damarlarda qanın axması həyat və dirilik simvoludur. Qan dövranı dayanarsa, insanın ölümü çatır. İslam cüssəsinin də yaşaması üçün onun damarlarında qan axması zəruri idi. Buna görə də bir gün bu qan onun bədənindən ayrılsa, təbii ki, onun yalnız cismi qalacaq, ruhsuz və cansız olacaq (Ətraflı məlumat üçün bax: "İmam Hüseyn (ə) şəxsiyyətinə irfani, fəlsəfi və sxolastik baxış", səh. 91-104).

# İMAM HÜSEYN (Ə) MATƏMİNİN ÖNƏMİ

İmam Hüseynə (ə) matəm saxlamağın önəminin aydın olması üçün bir neçə məqama diqqət yetirmək zəruridir:

## 1. Seçilmiş, fərqli və görkəmli insanların fəziləti və yüksək xüsusiyyətləri;

Bir çox Quran ayələrində üzərində dayanılan məsələ görkəmli tarixi və ilahi şəxsiyyətlərin xatirəsini və onların ibrət dolu tarixini yaşatmaqdır.

"Məryəm" surəsində oxuyuruq: "(Ya Peyğəmbər!) Kitabda (Quranda) İbrahimi də yad et (onun hekayətini də ümmətinə söylə). Həqiqətən, o, büsbütün doğru danışan kimsə – bir peyğəmbər idi" ("Məryəm", 41)

Başqa bir ayədə deyilir: "(Ya Peyğəmbər!) Kitabda (Quranda) İdrisi də yad et! O, həqiqətən, büsbütün doğru danışan kimsə (siddiq) – bir peyğəmbər idi. Biz onu yüksək bir məqama (Cənnətə, yaxud dördüncü göyə) qaldırdıq" ("Məryəm", 56-57).

Başqa bir surədə deyilir: "(Ya Peyğəmbər!) bəndəmiz Əyyubu da yad et! Bir zaman o öz Rəbbinə müraciətlə belə demişdi: "Şeytan mənə bəla və əzab toxundurmuşdur!" (Ona belə buyurduq: ) "Ayağınla (yerə) vur! Bu, (yerdən çıxan bulaq) yuyunacaq və içiləcək sərin (sudur)!" (Əyyub o su ilə qüsl edib ondan içən kimi bütün xəstəlikləri getdi). Dərgahımızdan bir mərhəmət və ağıl sahiblərinə bir ibrət olsun deyə, ona ailəsini və üstəlik bir o qədər də (oğul-uşaq) bağışladıq ("Sad", 41-43).

Məlumdur ki, bu və digər ayələrdə sözügedən böyük insanların şəxsi, ailə və adi işləri diqqətə alınmamışdır. Əksinə, söhbət onların ləyaqətlərindən, əxlaqi fəzilətlərindən, quruculuq işlərindən gedir. Bu mövzu göstərir ki, bəşər tarixinin seçilmiş və görkəmli şəxsiyyətlərinin xatirəsi yaşamalı, onların yaxşı xüsusiyyətləri diqqətə alınmalıdır. Buna görə də görürük ki, məsum imamlar (ə) Kərbəla şəhidlərinin, onların önündə isə həzrət İmam Hüseynin xatirəsini əziz tutmuş və müxtəlif yollarla yaşatmağa çalışmışlar.

## 2. Məsum imamlar (ə) və İmam Hüseyn (ə) matəminin müxtəlif yollarla anılması;

**a) Əza məclisləri keçirmək;**

İmamların (ə) Hüseyn hərəkatını yaşatmaq üçün

atdıqları addımlardan biri münasib zamanlarda əza mərasimləri keçirmək, ürəkağrıdıcı Kərbəla müsibətləri üçün ağlamaq, ağlatmaq olmuşdur.

İmam Səccad (ə) imamlığı dönəmi boyu həmişə Aşura hadisəsinin yasında idi. Bu müsibəti xatırlayıb o qədər ağlayırdı ki, "çox ağlayanlardan" ləqəbini almışdı ("Vəsail əş-şiə", c. 2, səh. 922).

Əlqəmə Həzrəmi nəql edir ki, İmam Baqir (ə) Aşura günü öz evində İmam Hüseyn (ə) üçün yas saxlayırdı. O həzrət özü babası üçün göz yaşı tökürdü. Təqiyyə etmirdi və evdə olanlara buyururdu: "O həzrət (ə) üçün yas saxlayın və İmam Hüseyn (ə) müsibəti səbəbilə bir-birinizə başsağlığı verin" ("Vəsail əş-şiə", c. 10, səh. 398).

İmam Sadiq (ə) Davud Riqqiyə buyurdu: "Mən, İmam Hüseyni (ə) yad etmədən soyuq su içmədim" (Şeyx Səduq, "Əmali", səh. 142).

İmam Rzadan (ə) nəql olunan bir rəvayətdə deyilir: "Məhərrəm ayı gəldikdə kimsə atam İmam Kazımı (ə) gülən görməzdi. Hüzn və kədər onu üstələyirdi. Bu, ayın onunadək davam edirdi. Aşura çatdıqda isə o gün onun hüzn, müsibət və ağlamaq günü idi. Atam buyururdu: "Bu gün, Hüseynin (ə) şəhid olduğu gündür" (Şeyx Abbas Qumi, "Məfatih əl-cinan", "Məhərrəm ayının əməlləri" fəsli).

Məsum imamlar (ə) nəinki özləri İmam Hüseyn (ə) matəmində ağlayırdılar, hətta həmişə insanları da ağlamağa təşviq edirdilər. Bir rəvayətdə deyilir: "Kim Hüseynə (ə) ağlasa, mükafatı behiştdir. Kim qəmlənsə, onun da yeri behiştdir" ("Bihar əl-ənvar", c. 24, səh. 284).

Şairləri mərsiyə yazmağa, məclislərdə Kərbəla haqqındakı şeirlərini oxumağa rəğbətləndirirdilər. Kümeyt Əsədi, Di`bil Xüzai, Seyid Himyəri və başqaları bu qəbildən olan şairlərdəndirlər.

### b) İmam Hüseynin (ə) ziyarətinə rəğbətləndirmək;

Hələ qədim zamanlardan dünya xalqları və müxtəlif millətlər arasında böyük insanları anmağa və qəhrəmanların qəbrlərini ziyarət etməyə diqqət göstərilmişdir və indi də göstərilməkdədir. Bu baxımdan İmam Hüseynin (ə) özünəməxsus yeri olmuşdur. Məsum imamların İmam Hüseynin (ə) məzarını ziyarət etmək haqqında kəlamları o qədər çoxdur ki, demək olar hər fürsət düşdükdə xalqı imamın (ə) məzarını ziyarət etməyə təşviq etmişlər. Bu, həm müsəlmanların imamla (ə) ruhi və fikri əhd-peymanı, həm də bir növ zülmkarlar əleyhinə mübarizə idi. İmam Hüseynin (ə) ziyarəti ilə bağlı çox sayda rəvayət var ki, burada yalnız birini qeyd etməklə kifayətlənirik.

İmam Sadiq (ə) buyurmuşdur: "Kim qiyamət günü nur süfrələri başında oturmaq istəyirsə, İmam Hüseynin (ə) ziyarətinə getsin" ("Kamil əz-ziyarat", 135).

## 3. Məhərrəm ayı qanın qılınca qələbə çaldığı aydır;

Məhərrəm ayı dəyərli bir kitabdır. Gecə və gündüzləri, saat və anları ilahi idrak, insanlıq, şərafət, azadlıq və izzət dərsləri ilə doludur. O, insana həm necə yaşamağı öyrədir, həm də necə ölməyi. Bu qiymətli xəzinə "zillət bizdən uzaqdır!" deməklə bütün nəsillərə, bütün dövrlərə, bütün məkanlara ismarıc göndərdi ki, ey Adəm övladları ey dünyada haqq və ədalət tərəfdarları, ayağa qalxın və Şeytan hökumətləri, zorakılar və zülmkarlara təslim olmayın.

Bundan başqa, İmam Hüseyn (ə) başdan-ayağa minlərlə cəllad qarşısında ömrünün son anlarını keçirərkən "bizə kömək edən kimsə varmı?" deyə yardım istədi. Sanki o, bütün ayıq insanlardan, bütün nəsillərdən, bütün zamanlarda yardım istəyirdi. O, saatlar, dəqiqələr öncə əzizlərini, silahdaşlarını bir-birinin ardınca əldən vermiş, gənc oğlu Əli Əkbərin cənazəsini çəkərək xeyməyə aparmış, dəqiqələr öncə vəfalı və ələmdar qardaşı həzrət Abbası (ə) qan içində görmüşdür. Artıq kimsəsi qalmamış, sağ qalmağa belə ümidi tükənmişdi. Bilirdi ki, tezliklə susuz halda babası Peyğəmbərin (s) görüşünə gedəcək. O zaman nə üçün və kimdən kömək istəyirdi? O, səsini özünə kömək üçün qaldırmamışdı. Əksinə, gələcək nəsillərdən kömək istəyirdi ki, qurumaqda olan tövhid ağacını unutmasınlar. Özünün və silahdaşlarının bu ağacı suvarmaq üçün tökdükləri qanı unutmasınlar ki, Aşura əbədiləşsin. Kərbəla şəhidlərinin qəhrəmanlıq xatirəsi həmişə yaşasın və İslamı sığortalasın.

## 4. Əzadarlıq vəhdət amili və uğur rəmzidir.

Hər bir xalqın yaşaması və uğuru üçün vəhdət amilinə ehtiyacı var. Şübhəsiz, Əhli-beyt (ə) tərəfdarları arasında milyonlardan ibarət kütləni bir yerə toplaya biləcək ən önəmli vəhdət amili İmam Hüseynə (ə) və vəfalı fədailərinə yas saxlamaqdır. Bu amil insanları istibdad və müstəmləkədən qurtara biləcək amildir. Tarix boyu Kərbəla şəhidlərinə yas tutmaq kiçik və böyük inqilablara, qiyamlara zəmin yaratmışdır. Əksər Kərbəla qaniçənlərini öz əməllərinin cəzasına çatdıran və güclü Əməvi ordusuna ağır zərbələr endirən tövbəkarlar üsyanı və Muxtar qiyamı bu qəbildəndir. Ümumilikdə nəzəriyyəçilərə görə, əksər dünya inqilabları Kərbəla qəhrəmanlarının qiyamına diqqətdən mənşə almışdır. Bunun ən bariz nümunəsi Hindistanın İngilis müstəmləkəçilərindən azad edilməsi faktıdır. Bu inqilabın rəhbəri Qandi demişdir: "Mən hind xalqı üçün yeni bir şey gətirməmişəm. Yalnız Kərbəla qəhrəmanının yaşam tarixi haqqındakı tədqiqatlarımı hind xalqına ərməğan etmişəm. Əgər hind xalqını xilas etmək istəyiriksə, Hüseyn ibn Əlinin (ə) keçdiyi yolu keçməliyik" (Məhəmməd Məhəmmədi İştihardi, "İmam Hüseynin həyatına bir baxış", səh. 109).

# İMAM HÜSEYN (Ə) MATƏMİNİN MƏNFİLƏRİ



Şübhəsiz, İmam Hüseyn (ə) adı ilə bağlı olan əzadarlıq mərasimləri şiəliyin böyük əlamətlərindən biridir ki, tarix boyu şiəlik dəyərlərini qoruyub saxlaya, nəsildən-nəslə ötürə bilmişdir. İmam Hüseyn (ə) rəvayətlərdə də deyildiyi kimi İslam həqiqətinin yaşaması amilidir. Başqa sözlə, nəql olunmuşdur ki, Peyğəmbər (s) buyurmuşdur) "Hüseyn məndən, mən də Hüseyndənəm". Bu ibarənin izahı olaraq deyilir ki, Hüseyn (ə) Peyğəmbərin (s) nəvəsidir. Peyğəmbərin (s) ondan olması ifadəsi isə həqiqi İslamın təcəlla etdiyi Əhli-beyt (ə) məktəbinin İmam Hüseynlə (ə) yaşayacağına eyham vurur. Bu məktəbin yaşaması da həmin məclislər, matəm mərasimləri İmam Hüseynə (ə) diqqət vasitəsilə gerçəkləşmiş və indi də gerçəkləşməkdədir. Amma bu məclisləri keçirməyin önəmi ilə yanaşı əslində bu, İmam Hüseyn (ə) məktəbi ilə, ümumilikdə din həqiqətləri ilə, xüsusi olaraq, imamətlə bağlı məsələlərlə daha çox tanış olmaq üçün bir fürsətdir. Amma nəzərdən qaçırmaq lazım deyil ki, bu mərasimlərin digər mədəni tərəfləri də İmam Hüseyn (ə) dəyərləri və ideyalarına uyğun olmalı, İslam meyarları ilə heç bir ziddiyyət təşkil etməməlidir. Bu növ mərasimlərdə diqqət olunması zəruri olan məsələlərdən biri haramlardan çəkinməkdir. İmam Hüseyn (ə) "yaxşılığa əmr və pisliyə qadağa" uğrunda şəhid oldu. "Yaxşılığa əmr" insanları yaxşı işlərə sövq etmək, "pisliyə qadağa" isə xalqı pisliklərdən çəkindirməkdir. Buna görə də İmam Hüseyn (ə) məclisləri elə olmalıdır ki, bu məclislər özləri "yaxşılığa əmr və pisliyə qadağa" prinsipinin bir nümunəsi olsun.

Bu növ məclislərdə həm iştirakçılar, həm təşkilatçılar, həm də natiqlər məsuliyyət daşıyırlar. Hamı İmam Hüseyn (ə) ideyalarını qorumağa məsuldur. Hər biri ayrı şəkildə, hər kəs öz mövqeyinə, yerinə uyğun məsuliyyət daşıyır. Bu növ məclislərdə din maarifindən danışan natiqlər bunu xalqa elə çatdırmalıdırlar ki, insanların dini bilgisi artsın. Bununla yanaşı onların dini həqiqətlərə inamı güclənsin. İslamda dini həqiqətlər dəyərlərə, rasional meyarlara əsaslanır. İslam ağıl dini, zəka dini, idrak və ziya dinidir. Cəhalət, xurafat və əfsanə dini yox. Buna görə də insanlara verilən məlumat düzgün islami məlumat olmalıdır. Əgər İslam yanlış şəkildə bəyan olunarsa, insanlara yanlış bilgilər verilərsə, bu özü bir növ "pisliy"i yaymağın nümunəsi və bir növ İmam Hüseyn (ə) ideyalarına zidd olacaq.

Əgər bu məclislər xurafatları yayarcasına, yanlış mətləblər təbliğ edərcəsinə təşkil olunarsa, insanların inamı sarsıyar, mütəfəkkir və ziyalı nəslimiz bu növ məclislərə etinasız yanaşar. Bu, İmam Hüseyn (ə) ideyaları və İslam dəyərləri ilə səsləşmir. İmam Hüseyn (ə) məclisləri din həqiqətləri məclisi, başqa sözlə, İmam Hüseyn (ə) eşqi ilə səciyyələnən din maarifi məclisləri olmalıdır. Əgər orada Kərbəla müsibətlərindən söhbət gedirsə, bu, tarixi baxımdan əsaslandırılmalı və İmam Hüseyn (ə) şəninə uyğun olmalıdır. Mütləq, tarixi həqiqətlər, İmam Hüseyn (ə), ailəsi və tərəfdaşlarının başına gələn müsibətlər uyğun dillə qeyd olunmalıdır. Hissləri bəyan etmək üçün ən gözəl nitq vasitəsi şeirdir. Amma bu, mütləq, tarixi sənədə əsaslanmalıdır. Yanlış mətləblər bəyan oluna bilməz. Hətta İslam maarifi ilə səsləşməyən mətləblər də İmam Hüseyn (ə) eşqi adı ilə deyilə bilməz. İslamda o eşq dəyərlidir ki, ağıla söykənsin. Bu eşq əslində din həqiqətini təcəlla etdirir. Onu iman qəlibində insanlara aşılayır. Yoxsa, dinə zidd bir mətləbi İmam Hüseyn (ə) eşqi, İmam Hüseynə (ə) iman adı ilə cəmiyyətdə yaymaq olmaz.

# *İmam Hüseyn (ə) qiyamı niyə diri qalıb?*

*İnqilab və qiyamları iki dəstəyə bölmək olar: agah inqilablara və agah olmayan inqilablara. O inqilab ki, agah olmayan halda baş verər, bu qiyamın rəhbərləri insanların qəflətindən faydalanar. Onlar qiyamda iştirak edənlərin siyasi inkişaf etməsinə və bəsirətə malik olmasına imkan verməzlər. Bu cür qiyamlar insanların bəsirətə malik olmadığına görə uzun çəkməmişdir. Bunlar başqa inqilablar üçün də nümunə ola bilməz. (Erfan)*

*O biri dəstə inqilablar isə agah şəkildə seçim edilən inqilablardır. Bu inqilablar insanların bəsirətə malik olması nəticəsində meydana gələr. Bütün İlahi peyğəmbərlərin (ə) inqilabı bu cür inqilablardan sayılır. Onlar heç bir zaman düşmənə qalib gəlmək üçün insanların qəflətindən istifadə etməmişdilər.*

*Aşura qiyamı da məhz bu cür qiyamlardan idi. Bu qiyamda fikri və əməli bəsirət mövcud idi. İmamın (ə) tərəfdaşları öz İmamlarını və İlahi hüccəti dərindən tanıyaraq, din düşmənini ayırd edərək, haqqı batildən ayıraraq İmam Hüseynə (ə) qoşulmuşdular. Onların qiyamı əqidə qiyamı idi. Onlar hər cür təəssübkeşlikdən, cahillikdən, düşməni təhrik etməkdən uzaq idilər. İmam Əlinin (ə) tərəfdaşları da məhz bəsirət üzündən İmama (ə) qoşulmuşdular. İmam Əli (ə) öz tərəfdaşları haqqında belə buyurur: "Öz bəsirətlərini qılınclarına mindiriblər". Yəni, əgər döyüş meydanında ox atırlarsa, bəsirət üzündən atırlar. İmam Səccad (ə) əmisi Abbası bəsirət əhli adlandırırdı. Nafəh ibni Əl-Hilal Aşura gecəsi İmamın (ə) sözlərindən sonra ayağa qalxdı və öz vəfadarlığını belə elan etdi: "Həqiqətən, bizim bəsirətimiz vardır və onu əldən verməmişik".*

*Maraqlısı budur ki, İmamın (ə) tərəfdaşlarının heç biri düşmən hiyləsinə aldanmadı və onlar tərəfə cəzb olunmadı. Çünki onlar din düşmənini yaxşı tanıyırdılar. Bərir Kərbəla səhnəsində düşmənlə danışan zaman demişdi: "Allaha həmd olsun ki, mənim sizin haqqınızdakı bəsirətimi və elmimi artırmışdır".*

*İmamın (ə) tərəfdaşları o qədər vəfadar insanlar idi ki, İmam özü də bunu etiraf edirdi və onları ən yaxşı səhabə adlandırırdı.*

*İmam Hüseyn (ə) qiyamındakı bəsirət ikitərəfli idi: onun bir tərəfi qiyam rəhbərliyinin bəsirəti idi və o biri tərəfi isə İmamın (ə) tərəfdaşlarının bəsirəti idi. İmam Hüseyn (ə) öz əsrinin siyasi və ictimai qiyamının rəhbəri kimi düşmənin xəyanətini yaxşı bilirdi. O, bilirdi ki, bu döyüş bərabər olmayan bir döyüşdür. Zahirdə onun faydasına deyildir. Lakin İmam (ə) bilirdi ki, qiyamın əsl hədəfi - İlahi vəzifəni yerinə yetirmək, İslam ümmətini islah etmək və dini qorumaqdır. İmam (ə) öz müqəddəs inqilabını din uğrunda olmayan inqilablardan ayırdı. İmam (ə) xütbə oxuyaraq, qiyamının hədəfini bəyan etdi ki, insanlar bu hədəfdən agah olsunlar. Düşmənlərin məhz dinlə vuruşduqlarını bilsinlər. İmam Hüseyn (ə) öz tərəfdaşlarını dəfələrlə bəsirətə dəvət etmişdi. Onlardan istəmişdi ki, döyüşü buraxsınlar, çünki döyüşün gələcəyi onların xeyrinə deyildir. İmam (ə) Aşura gecəsi öz tərəfdaşlarına xitab edərək buyurmuşdu: "Onlar məni və mənimlə cihad edən hər kəsi öldürəcəklər. Qarətdən sonra ailəmi əsir alacaqlar. Qorxuram ki, sizin bunlardan xəbəriniz olmasın. Hər kim bizimlə olmaq istəmir, geri qayıtsın".*

*İmam Hüseyn (ə) qiyamı bəsirətli bir qiyam olduğu üçün cavidandır. Şəhid Mütəhhəri buyurur: "İmam Hüseyn (ə) inqilabı haqqında ilk bilməli olduğumuz şey budur ki, agah bir inqilab idi. Həm özü tərəfindən və həm də tərəfdaşları və Əhlibeyti (ə) tərəfindən".*